# QƏDİM DİYAR

Beynəlxalq onlayn elmi jurnal

# ANCIENT LAND

International online scientific journal

aem.az

AEM

ISSN: 2706-6185
e-ISSN: 2709-4197

**AZƏRBAYCAN RESPUBLİKASI**

**THE REPUBLIC OF AZERBAIJAN**

# QƏDİM DİYAR

**Beynəlxalq onlayn elmi jurnal**
**İmpakt Faktor: 0.652**

**Cild: 4 Sayı: 11**

# ANCIENT LAND

**International online scientific journal**
**Impact Factor: 0.652**

**Volume: 4 Issue: 11**

**Bakı – Baku**
**2022**

Jurnal 31.01.2012-ci ildə
Azərbaycan Respublikası
Ədliyyə Nazirliyi
Mətbu nəşrlərin
reyestrinə daxil edilmişdir
Reyestr №3534

The journal is included in the register of Press editions of the Ministry of Justice of the Republic of Azerbaijan on 04.07.2019.
Registration No. 4243

**Redaksiyanın ünvanı**
Az1073, Bakı şəh.,
Mətbuat prospekti, 529,
"Azərbaycan" nəşriyyatı,
6-cı mərtəbə

**Editorial address**
Az1073, Baku,
Matbuat Avenue, 529,
"Azerbaijan" Publishing House,
6-th floor

**Tel.:** +994 50 209 59 68
+994 55 209 59 68
+994 99 806 67 68
+994 12 510 63 99

**e-mail**
qedim.2012@aem.az

## Beynəlxalq indekslər / International indices

**ISSN: 2706-6185**
**e-ISSN: 2709-4197**
**DOI: 10.36719**

© Jurnalda çap olunan materiallardan istifadə edərkən istinad mütləqdir.
© It is necessary to use reference while using the journal materials.
© https://aem.az
© info@aem.az

**Təsisçi və baş redaktor**

**Tədqiqatçı Mübariz HÜSEYİNOV**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan
+994 50 209 59 68
tedqiqat1868@gmail.com
ORCID ID 0000-0002-5274-0356

**Founder and Editor-in-Chief**

**Researcher Mubariz HUSEYINOV**, Azerbaijan Science Center / Azerbaijan
+994 50 209 59 68
tedqiqat1868@gmail.com
ORCID ID 0000-0002-5274-0356

**Redaktor**

**Assoc. Prof. Dr. Pərvanə PAŞAYEVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
p.parvana84@gmail.com

**Editor**

**Assoc. Prof. Dr. Parvana PASHAYEVA**, Baku State University / Azerbaijan
p.parvana84@gmail.com

**Redaktor köməkçisi**

**Magistrant Gülşən ATAKİŞİYEVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
a_gulsen00@mail.ru

**Assistant editor**

**Master Gulshan ATAKISHIYEVA**, Azerbaijan State Pedagogical University / Azerbaijan
a_gulsen00@mail.ru

**Redaktor köməkçisi**

**Bakalavr Nəhayət HÜSEYNLİ**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan
nehayet.huseynli@gmail.com

**Assistant editor**

**Bachelor Nahayat HUSEYNLI**, Azerbaijan Science Center / Azerbaijan
nehayet.huseynli@gmail.com

**Dillər üzrə redaktorlar**

**Prof. Dr. Abbas ABBASOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Nəriman SEYİDƏLİYEV**, AMEA Dilçilik İnstitutu / Azərbaycan

**Language editors**

**Prof. Dr. Abbas ABBASOV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Nariman SEYIDALIYEV**, ANAS Institute of Linguistics / Azerbaijan

**Elmi sahələr üzrə redaktorlar**

**Prof. Dr. Vaqif SOLTANLI**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Ələmdar ŞAHVERDİYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan

**Editors in scientific fields**

**Prof. Dr. Vagif SOLTANLI**, Baku State University / Azerbaijan
**Prof. Dr. Alamdar SHAHVERDIYEV**, Baku State University / Azerbaijan

## REDAKSİYA HEYƏTİ

**Prof. Dr. Nailə VƏLİXANLI**, Tarix muzeyi / Azərbaycan
**Prof. Dr. Nərgiz AXUNDOVA**, AMEA Tarix İnstitutu / Azərbaycan
**Prof. Dr. Abdulkadir GÜL**, Ərzincan Binalı Yıldırım Universiteti / Türkiyə
**Prof. Dr. Qəzənfər KAZIMOV**, AMEA Dilçilik İnstitutu / Azərbaycan
**Prof. Dr. Coanna MARŞALEK-KAVA**, Nikolay Kopernik Universiteti / Polşa
**Prof. Dr. Vidas KAVALİUSKAS**, Vilnus Biznes Universiteti / Litva
**Prof. Dr. Şirindil ALIŞANOV**, AMEA Ədəbiyyat İnstitutu / Azərbaycan
**Prof. Dr. Firuzə ABBASOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Svetlana KOJİROVA**, L.N.Qumilyov adına Avrasiya Milli Universiteti / Qazaxıstan
**Prof. Dr. Masumə DAEİ**, Təbriz Payame Noor Universiteti / İran İslam Respublikası
**Prof. Dr. Rafail HƏSƏNOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Mönsüm ALIŞOV**, "İdrak" liseyi / Azərbaycan
**Assos. Prof. Dr. İosefina BLAZSANİ-BATTO**, Rumın Dili və Mədəniyyəti Mərkəzi / Rumıniya
**Assoc. Prof. Dr. Andrey RAQULİN**, Rusiya Federasiyasının DİN Moskva Universiteti / Rusiya
**Assoc. Prof. Dr. Dürdanə MƏMMƏDOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Gülçöhrə ƏLİYEVA**, Dəniz Akademiyası / Azərbaycan
**Assoc. Prof. Dr. Cəbi BƏHRAMOV**, AMEA Tarix İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Nasiba SABİROVA**, Urgenc Dövlət Universiteti / Özbəkistan
**Assoc. Prof. Dr. Fərqanə ƏLİYEVA**, DİN-nin Polis Akademiyası / Azərbaycan
**Assoc. Prof. Dr. Lyudmila CAVADOVA**, İqtisadiyyat və Hüquq üzrə Pedaqoji Kollec / Rusiya, Dağıstan Respublikası
**Assoc. Prof. Dr. Şəhla ƏHMƏDOVA**, Bakı Slavyan Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Andrey SIZRANOV**, Həştərxan Dövlət Universiteti / Rusiya
**Assoc. Prof. Dr. Rəşad SADIQOV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Ramis HƏŞİMOV**, Dağıstan Dövlət Universitetinin Dərbənd filialı / Rusiya, Dağıstan Respublikası

## EDITORIAL BOARD

**Prof. Dr. Naila VALIKHANLI**, The museum of History / Azerbaijan
**Prof. Dr. Nargiz AKHUNDOVA**, Institute of History of ANAS / Azerbaijan
**Prof. Dr. Abdulkadir GUL**, The University of Arzinjan Binali Yildirim / Turkey
**Prof. Dr. Gazanfar KAZIMOV**, Institute of Linguistics of ANAS / Azerbaijan
**Prof. Dr. Joanna MARSZALEK-KAVA**, Nicolaus Copernicus University / Poland
**Prof. Dr. Vidas KAVALIUSKAS**, Vilnius Business University / Lithuania
**Prof. Dr. Shirindil ALISHANOV**, ANAS Institute of Literature / Azerbaijan
**Prof. Dr. Firuza ABBASOVA**, Baku State University / Azerbaijan
**Prof. Dr. Svetlana KOJIROVA**, L.N.Gumilyov Eurasian National University / Kazakhstan
**Prof. Dr. Masuma DAEI**, Payame Noor University of Tabriz / Islamic Republic of Iran
**Prof. Dr. Rafail HASANOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Monsum ALISHOV**, Idrak Lyceum / Azerbaijan
**Assos. Prof. Dr. Iosefina BLAZSANI-BATTO**, Romanian Language and Cultural Center / Romania
**Assoc. Prof. Dr. Andrey RAGULIN**, Moscow University of the Ministry of Internal Affairs of the Russian Federation / Russia
**Assoc. Prof. Dr. Durdana MAMMADOVA**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Gulchora ALIYEVA**, Azerbaijan State Marine Academy / Azerbaijan
**Assoc. Prof. Dr. Jabi BAHRAMOV**, The Institute of History of ANAS / Azerbaijan
**Assoc. Prof. Dr. Nasiba SABIROVA**, Urgench State University / Uzbekistan
**Assoc. Prof. Dr. Fargana ALIYEVA**, Police Academy of the Ministry of Internal Affairs / Azerbaijan
**Assic. Prof. Dr. Lyudmila JAVADOVA**, Pedagogical College on Economy and Law / Russia, the Dagestan Republic
**Assic. Prof. Dr. Shahla AHMADOVA**, Baku Slavic University / Azerbaijan
**Assoc. Prof. Dr. Andrey SIZRANOV**, Astrakhan State University / Russia
**Assoc. Prof. Dr. Rashad SADIGOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Ramis HASHIMOV**, Derbend branch of Dagestan State University / Russia, the Dagestan Republic

DOI: https://doi.org/10.36719/2706-6185/17/5-7

**Maarifə Nuh qızı Manafova**
Mingəçevir Dövlət Universiteti
filologiya üzrə fəlsəfə doktoru
manafov49@mail.ru

# DİLÇİLİYİMİZİN BÖYÜK NAİLİYYƏTİ – "ÜMUMTÜRK DİLLƏRİ DİALEKT VƏ ŞİVƏLƏRİNİN QARŞILIQLI İNTEQRASİYASI" KİTABI

**Xülasə**

Azərbaycan dilçiliyində dialekt və şivələrin müxtəlif sahələrinə dair qiymətli monoqrafiyalar yazılmış, dialektoloji atlaslar və lüğətlər tərtib edilmişdir. Dialekt və şivələrimizin lüğət tərkibi uzun əsrlərin məhsulu olduğundan burada Azərbaycan xalqının keçmiş olduğu dövrləri əks etdirən sözlərə təsadüf edirik. Türk dillərinin bəzi əlamətləri və innovasiya faktı kimi sonralar meydana çıxmış bir sıra xüsusiyyətlər məhəlli dialektlərin əlamətləri kimi müəyyənləşmişdir.

Ümumtürk dilləri fonetikasının müqayisəli tədqiqi onların ümumi inkişaf qanunauyğunluqlarını, bu dillərin hər birinin oxşar və fərqli cəhətlərini aşkara çıxarmağa qiymətli faktlar verir. Ümumtürk dilləri dialekt və şivələrinin qarşılıqlı inteqrasiyası məsələlərinin tədqiqində professor Mahirə Hüseynovanın xidmətlərini böyükdür.

***Açar sözlər:*** *dilçilik, türk dilləri, dialekt, ədəbi dil, şivə*

**Maarifa Nuh Manafova**
Mingachevir State University
Ph.D. in philology
manafov49@mail.ru

## The great achievement of our linguistics - The book "Mutual integration of the dialects and symmetrics of all Turkish languages"

**Abstract**

Valuable monographs on various areas of dialects and dialects have been written in Azerbaijani linguistics, dialectological atlases and dictionaries have been compiled. Since the vocabulary of our dialects and dialects is the product of many centuries, here we come across words that reflect the times of the past of the Azerbaijani people. Some features of Turkic languages and a number of features that appeared later, such as the fact of innovation, have been identified as signs of local dialects.

The comparative study of the phonetics of all Turkic languages provides valuable facts to reveal their common developmental patterns, the similarities and differences of each of these languages. Professor Mahira Huseynova's services in researching the issues of mutual integration of dialects and dialects of all Turkic languages are great.

***Keywords:*** *linguistics, Turkic languages, dialect, ordinary language, dialect*

## Giriş

2022-ci ildə Azərbaycan Respublikasında elm, texnika, memarlıq və ədəbiyyat üzrə Dövlət Mükafatlarına təqdim edilmiş işlər arasında Mahirə Hüseynovanın (Elm sahəsində) "Ümumtürk dilləri dialekt və şivələrinin qarşılıqlı inteqrasiyası" kitabı da var. Əsəri Dövlət Mükafatına Azərbaycan Dövlət Pedaqoji Universiteti təqdim etmişdir.

Qohum türk dillərinin dialekt və şivələrinin müqayisəli aspektdə tədqiq edilməsi dilçilik elminin prioritet sahələrindən biridir. Bu sahədə Azərbaycan dilçiliyində xeyli iş görülmüş, dialekt və şivələrin müxtəlif sahələrinə dair qiymətli monoqrafiyalar yazılmış, dialektoloji atlaslar və lüğətlər tərtib edilmişdir. Ümumtürk dilləri dialekt və şivələrinin qarşılıqlı inteqrasiyası

məsələlərinin tədqiqində professor Mahirə Hüseynovanın xidmətləri böyükdür. Tanınmış türkoloq türk dillərinin dialektlər sistemini yorulmadan araşdırmış, ortak dialektoloji vahidləri və onların areallarını müqayisəli şəkildə linqvistik tədqiqata cəlb etmişdir.

Mahirə Hüseynovanın tədqiqatlarında türk dillərinin dialekt bölünməsinə, türk xalqlarının tarixi və inkişaf mərhələlərinin təsnifatına yeni elmi baxışla rastlaşırıq (Məmmədli, 2022: 11).

Ümumtürk dillərinin dialekt və şivələrində saitlərin fonematik xüsusiyyətlərinin, samitlərin variantlarının qohum türk dillərində müqayisəli tədqiqi aktuallıq kəsb edən məsələlərdəndir. Tədqiqatçı gösrərir ki, dialekt və şivələrin fonetikası türkcələrin ədəbi dilləri ilə müqayisədə oxşar və fərqli cəhətlərə malikdir. Ümumtürk dilləri fonetikasının müqayisəli tədqiqi onların ümumi inkişaf qanunauyğunluqlarını, bu dillərin hər birinin oxşar və fərqli cəhətlərini aşkara çıxarmağa qiymətli faktlar verir.

Türk dillərinin fonetik quruluşunu araşdıran tədqiqatçı əksər türk dillərində 8 saitin, *ə* saiti olan dillərdə 9 saitin, özbək dilində 6 saitin olduğunu göstərir və qeyd edir ki, türk dillərinin dəfələrlə ayrılması, birləşməsi nəticəsində hər bir türk dilinin fonetik quruluşunda fərdi cəhətlər yaranmağa başlamışdır (2).

M.Hüseynova göstərir ki, türkcələrin ədəbi dilləri inkişaf etdikcə ayrı-ayrı dil vahidlərinin dialekt həddində müəyyənləşməsi prosesi genişlənmişdir və bu baxımdan morfoloji kateqoriyalar da istisna deyildir. Dilin başqa yaruslarında olduğu kimi, morfoloji quruluşunda da ayrı-ayrı elementlər (morfoloji əlamətlər) dialekt faktı kimi işlənmişdir.Məhəlli dialektlərin formalaşmasında ekstralinqvistik amillər mühüm rol oynamışdır. Müxtəlif inzibati bölgülər, təbii-coğrafi sədlər ayrı-ayrı dil vahidlərinin məhdud ərazilərdə işlənməsi üçün şərait yaratmışdır. Qədim türk dillərinin bəzi əlamətləri və innovasiya faktı kimi sonralar meydana çıxmış bir sıra xüsusiyyətlər məhəlli dialektlərin əlamətləri kimi müəyyənləşmişdir. Ədəbi dil normalarının sabitləşməsi isə ayrı-ayrı qrammatik əlamətlərin dialektal təbiətini daha aydın göstərir (Əzizov, 2016: 168).

Hal kateqoriyasının morfoloji göstəricilərinin türk dillərinin dialekt və şivələrinə inteqrasiyasını qeyd edən tədqiqatçı alim ümumtürk dillərində ismin hallarının müxtəlif terminlərlə adlandırılmasını göstərir: *Adlıq, Yiyəlik, Yönlük, Təsirlik, Yerlik, Çıxışlıq* (Azərbaycan türkcəsində); *İlgi, Yükləmə, Yaklaşma, Bulunma, Uzaklaşma* (Başqırd, Qazax, Qırğız və b. türkcələrdə). Türk dillərində ismin hal kateqoriyası ilə əlaqədar başlıca xüsusiyyətlər bu və ya digər hal şəkilçisinin müxtəlif variantlarda işlənməsində müşahidə edilir. Hal kateqoriyasının əksər morfoloji göstəriciləri ümumtürk dillərinə və ya dialektlərinə qarşılıqlı şəkildə, özü də müxtəlif dövrlərdə inteqrasiya olunmuşdur (Hüseynova, 2020: 367).

Tədqiqatçı türk dilləri dialektlərinin morfoloji cəhətlərinin geniş bir aspektdə öyrənilməsinə ciddi ehtiyac olduğunu göstərmiş və türk dilləri dialektlərində mənsubiyyət kateqoriyasının morfoloji əlamətlərinin; *-lar-lər* morfeminin; əvəzliklərin (əsasən işarə və qayıdış əvəzliklərinin); zərflərin; məsdər, feili bağlama, feili sifət şəkilçilərinin ümumtürk dillərinin dialektlərinə qarşılıqlı inteqrasiyasının spesifik cəhətlərini müqayisəli planda araşdırmışdır.

Dialekt və şivələrimizin lüğət tərkibi uzun əsrlərin məhsulu olduğundan burada Azərbaycan xalqının keçmiş olduğu dövrləri əks etdirən sözlərə təsadüf edirik (Şirəliyev, 2008: 318). M.Hüseynova xüsusi olaraq vurğulayır ki, bugünkü türk xalqlarının ədəbi dillərinin və ya dialektlərinin və eyni zamanda, onların tarixi-etnik-genetik köklərinin dərindən öyrənilməsində saysız-hesabsız leksik vahidlər də mühüm rola malikdirlər və ümumtürk dillərinin leksik bazasına söykənməklə qohum dillərin dialekt və şivələrində müşahidə olunan inteqrasiya hallarını üzə çıxarmaq mümkündür. Müxtəlif peşələrlə bağlı leksik vahidlərin yaranma və formalaşma tarixi türk dillərində olduqca qədimdir. Müasir türk dillərinin dialektlərində bu qəbildən olan leksik vahidlərin bəziləri arxaikləşmiş, bəziləri fonetik cəhətdən formasını dəyişmiş, bəziləri isə qədim mənasını qoruyub saxlamışdır (6).

Professor M.Hüseynova həm oğuz, həm də qıpcaq qrupu türk dillərinin dialektlərində işlənən müxtəlif peşələrlə bağlı leksikanın müəyyən cəhətlərini izləmiş, şivələrdə mühafizə olunan bəzi sözləri təhlil süzgəcindən keçirməklə dilçiliyimiz üçün maraqlı nəticələr əldə etmişdir. *Daraq, məs (dabansız yüngül ayaqqabı), biz, balaq, börk, uruğ, tirə...* belə sözlərdəndir (7).

Tədqiqatçı alim göstərir ki, *daraq* sözü türk xalqlarında xalçaçılıq peşəsi ilə bağlıdır (yun daramaq işlərində tətbiq olunur) və *daraq* sözü əksər türk xalqlarının həm ədəbi dilində, həm də dialektlərində işlək vəziyyətdədir. Bu söz qırğız, qazax, tatar, başqırd, qaraçay-balkar, yakut və s. dillərdə "t" ilə işlənir: *daraq/tarak. Daraq/tarak* sözü ümumtürk mənşəlidir. Mahmud Kaşğarinin lüğətində *tarğat* (*tarğak, taradi, taraldi, daradı*) sözləri də məlum semantikada işlənmişdir (Kazımov, 2012: 232-233). Azərbaycan dilinin Şuşa şivəsində işlənən *daraxçı (daraq qayıran sənətkar*) sözünün əsasında da *darax* leksik vahidi dayanır. Bu söz Şuşa, Ağdam, Biləsuvar, Daşkəsən şivələrində onomastik vahid kimi çıxış edir, müxtəlif mənalar bildirir. Məsələn, Şuşa şivəsində: 1) *Darax* - Bəzi quşların başında yelpincə oxşar kəkil – *Şanapipiyin darağı tousunkuna oxşuyur; 2) Darax*- qəlsəmə- *Balığın darağı qırılsa, zəhərri olar; 3) Darax* - əl və ayaqlarda pəncə sümükləri - *Bu sümüklər əl deyil, əyax daraxlarıdı.*

Bütün bunlardan əlavə, *daramax* sözü Gürcüstanın Dmanisi, Marneuli şivələrində feil kimi işlənir və *baş yumaq* mənasını bildirir. Gəncə və Tovuz şivələrində də bu söz işlənir və *ağacın budaqlarını kəsmək, qırmaq anlamını* ifadə edir (Hüseynova, 2020: 488).

*Biz* - Bu, tikişçilik peşəsində istifadə edilən alət adını bildirir. Azərbaycan dilinin Şamaxı dialektində, Kürdəmir, və Tərtər şivələrində *bizdəmək* sözü işlənir ki, bu leksik vahidin əsasında *biz* sözü dayanır: -*Onu bizdəməsən iş görəsi döy* (Şamaxı).

*Tikiş aləti* anlamında bu söz Türkiyə, Azərbaycan, başqırd, qazax, tatar, türkmən türkcəsində *biz*, özbək və uyğur türkcəsində isə *bigiz, begiz* formalarında işlənir. Qırğız türkcəsində bu söz *şibege* şəklindədir. Altay-balkar, noqay dillərində bu söz *bigiz* formasında və *deşmək, kəsmək, doğramaq* mənalarında işlənir (Kazımov, 2012: 225).

## Nəticə

Tədqiqatçı haqlı olaraq bu nəticəyə gəlir ki, bəşəriyyət tarixində ilk dəfə olaraq müxtəlif peşələri kəşf edən türklər olmuş, türk xalqları bu peşələrə və bu peşələrdə istifadə olunan alət və vasitələrə uyğun olaraq müxtəlif adlar vermiş və bu adlar minillikləri adlayaraq və eyni zamanda türk dillərinə və dialektlərinə inteqrasiya edilərək çağdaş dövrümüzə qədər gəlib çıxmışlar. Bütün bu leksik vahidlərin türk dillərinin dialektlərindəki struktur-semantik, leksik-semantik əlamətlərini öyrənməklə türk xalqlarının bir-birlərinə dil və etnoqrafik baxımdan nə qədər yaxın olduğunu aşkara çıxarmaq mümkündür. Beləliklə, professor Mahirə Hüseynovanın "Ümumtürk dilləri dialekt və şivələrinin qarşılıqlı inteqrasiyası" kitabi ilə tanışlıqdan sonra çəkinmədən demək olar ki, bu kitab müstəqillik dövrü dilçiliyimizin böyük nailiyyətidir və Dövlət Mükafatı almağa tam layiqdir.

## Ədəbiyyat

1. Məmmədli, N. (2022). Ümumtürk dilləri dialekt və şivələrinin öyrənilməsinə dəyərli töhfə. Bakı, "Xalq qəzeti", 11 s.
2. https://manera.az/index.php?newsid=14129
3. Əzizov, E. (2016). Azərbaycan dilinin tarixi dialektologiyası. Bakı: Elm və təhsil, 348 s.
4. Hüseynova, M. (2020). Ümumtürk dilləri dialekt və şivələrinin qarşılıqlı inteqrasiyası. Bakı: ADPU nəşriyyatı, 600 s.
5. Şirəliyev, M. (2008). Azərbaycan dialektologiyasının əsasları. Bakı: Şərq-Qərb, 416 s.
6. https://www.muallim.edu.az/print.php?id=20706
7. https://www.academia.edu/38306136/Az%C9%99rbaycan_dili_dialektl%C9%99rind%C9%99_v%C9%99_t%C3%BCrk_dilind%C9%99_i%C5%9Fl%C9%99n%C9%99n_ortaq_s%C3%B6zl%C9%99r_docx
8. Kazımov, İ. (2012). Müasir türk dillərinin müqayisəli leksikası. Bakı: Elm və təhsil, 315 s.

Göndərilib: 01.09.2022 Qəbul edilib: 16.11.2022

DOI: https://doi.org/10.36719/2706-6185/17/8-13

**Günel Emil qızı Nəzərova**
Bakı Slavyan Universiteti
doktorant
shaxnaz@internet.ru

# MÜASİR MƏKTƏBDƏ YUXARI SİNİF ŞAGİRDLƏRİNİN SİYASİ MƏDƏNİYYƏTİNİN FORMALAŞMASI ÜZRƏ İŞİN VƏZİYYƏTİ

**Xülasə**

Siyasi mədəniyyət cəmiyyət mədəniyyətinin tərkib hissəsi olmaqla, insan münasibətləri sistemini özündə birləşdirir. Orta məktəb şagirdləri vətəndaş tərbiyəsi, siyasi ictimailəşmə, ictimai-siyasi fəaliyyət və digər proseslər vasitəsilə formalaşan cəmiyyətin siyasi mədəniyyətinin subyektləri və daşıyıcılarıdır. Məqalədə orta məktəbdə yuxarı sinif şagirdlərinin siyasi mədəniyyətinin formalaşdırılması cəmiyyətin siyasi həyatının ən mühüm komponenti kimi araşdırılır. Konsepsiyanın məzmunu və mahiyyəti, mədəniyyətin bu sahəsinin təşəkkül tarixi, tədqiqi və inkişafı, o cümlədən cəmiyyətin mütərəqqi inkişafı üçün yuxarı sinif şagirdlərinin bir vətəndaş kimi siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsinin əhəmiyyəti ətraflı nəzərdən keçirilir. Məqalədə orta məktəbdə yuxarı sinif şagirdlərinin siyasi mədəniyyətinin formalaşması üzrə işin vəziyyətinə, xüsusiyyətləri, problemləri və inkişaf perspektivlərinə yer verilir.

***Açar sözlər:*** *məktəb, siyasi mədəniyyət, cəmiyyətin siyasi təcrübəsi, siyasi dəyərlər, davranış normaları, siyasi mədəniyyətin strukturu, siyasi şüur*

**Gunel Emil Nazarova**
Baku Slavic University
PhD student
shaxnaz@internet.ru

## The state of work on the formation of the political culture of high school students in the conditions of a modern school

**Abstract**

Political culture, being a part of social culture, includes a system of human relations. High school students are the subjects and bearers of the political culture of society, formed through civic education, political socialization, socio-political activities and other processes. The article deals with the formation of the political culture of high school students as the most important component of the political life of society. The article discusses the content and essence of the concept, the history of the formation, research and development of this area of culture, as well as the importance of raising the level of political culture of high school students as citizens for the progressive development of society. detail. The article reflects the state, features, problems and prospects for the development of the formation of the political culture of high school students.

***Keywords:*** *school, political culture, political experience of society, political values, norms of behavior, structure of political culture, political consciousness*

## Giriş

Şəxsiyyətin hərtərəfli və ahəngdar inkişafı, ictimai fəaliyyətə və həyata hazırlanması, onda müsbət əxlaqi keyfiyyətlərin formalaşdırılması bütün dövrlərdə olduğu kimi, bu gün də cəmiyyətin ən aktual məsələlərindən biridir. Demokratik cəmiyyətdə bütün vətəndaşlar minimum siyasi mədəniyyətə malik olmalıdırlar. Buradan da hələ məktəb yaşlarından vətəndaşlarda siyasi mədəniyyəti formalaşdırmaq zərurəti meydana çıxır. Vətəndaşlarda siyasi mədəniyyətinin formalaşmasından danışan tanınmış politoloq M.Əfəndiyev yazır: "Dərin siyasi proseslərin inkişafı

və eləcə də siyasi həyatın konkret təzahürü cəmiyyətin siyasi mədəniyyətindən asılıdır" (Əfəndiyev, 2011: 307). Müəllif qeyd edir ki, "siyasi sistemlə siyasi mədəniyyətin bir-birini qarşılıqlı şərtləndirməsi tamamilə təbii və qanunauyğundur" (Əfəndiyev: 1998: 412). Siyasi mədəniyyət anlayış istər xarici istərsə də Azərbaycan tədqiqatçılarının diqqətini cəlb etmişdir.

Azərbaycanda siyasi mədəniyyət məsələlərinin formalaşdırılmasının tədqiqi 1990-cı illərdə tədris olunan politologiya fənninin məzmununda da öz əksini tapmışdır.

Xaricdə isə siyasi mədəniyyətin tədqiqatı XVIII əsrə təsadüf edir. XX əsrdə bu işin davamçıları Q.Almond və S.Verba olmuşdur. Q.Almond və S.Verba 1963-cü ildə yazdıqları "Vətəndaş mədəniyyəti" adlı kitabda müxtəlif ölkələrin (AFR, İtaliya, ABŞ və Meksika) siyasi sistemlərinin əsas komponentlərinin və fəaliyyət formalarının təhlili əsasında siyasi mədəniyyətin 3 xalis tipini nəzərdən keçirmişlər" (https://www.labirint.ru).

L.A.Onikova ... siyasi mədəniyyətin bir çox səciyyəvi cəhətlərini açıqlayaraq onun mahiyyətini, ictimai inkişafın gedişində şəxsiyyətin fəal xadim kimi formalaşması ilə qırılmaz bağlılığını göstərir (Onikova, Abarenkov, Averkin, 1987: 48). O, siyasi mədəniyyətin mahiyyətini, funksiyalarını, quruluşunu və mədəniyyətin digər formaları ilə olan əlaqəsini açıb göstərmişdir. Deməli, siyasi mədəniyyət şəxsiyyətin mənəvi aləmi ilə bağlıdır və insanın mənəviyyatının tərkib hissəsidir.

V.C.Kelle, M.Y.Kovalzon "Nəzəriyyə və tarix" adlı əsərində göstərirlər ki, "*siyasi mədəniyyət özündə şüur, siyasət və mədəniyyətin əlamətlərini birləşdirir*" (Kelle, Koval'zon, 1981: 50). V.C.Kelle, M.Y.Kovalzonun qeyd etdiyi siyasi mədəniyyətin tərkibini təşkil edən bu komponentlər ümumilikdə cəmiyyətin əsasını təşkil edir. Bu isə siyasi mədəniyyətin insan üçün əhəmiyyətini əks etdirir. Siyasi mədəniyyət ümumi mədəniyyətin tərkib hissəsidir və özünü təkcə sosial münasibətlərdə deyil siyasi fəaliyyətdə də göstərir.

Problemlə bağlı professor M.Əmirovun 4 fəsildən ibarət olan "Tarixin tədrisində şagirdlərdə siyasi mədəniyyətin formalaşdırılması üzrə işin sistemi" dissertasiyasında təlim prosesində şagirdlərdə siyasi mədəniyyətin formalaşdırılmasının məqsədi, predmeti, forma və metodları, pedaqoji, psixoloji və fəlsəfi əsasları öz əksini tapmışdır. Siyasi mədəniyyətin formalaşdırılmasının məktəbdəki vəziyyəti araşdırılmış, tarix dərslərində və dərsdənkənar tədbirlərdə siyasi mədəniyyətin formalaşdırılmasının nümunələri verilmişdir (Əmirov, 2008: 12).

Ölkəmizdə siyasi mədəniyyət mövzusuna toxunanlardan biri də X.İbrahimlidir. Müəllif tədqiqat nəticəsində belə qənaətə gəlmişdir ki, "*Siyasi mədəniyyət siyasi proseslərin mahiyyətinin düzgün qavranılmasına, konkret siyasi sistemdə hüquq və azadlıqlarının gerçəkləşməsinə kömək edir*" (İbrahimli, 2012: 175).

A.Rəcəbova "Cəmiyyətin demokratikləşməsində siyasi mədəniyyət amili" adlı monoqrafiyasında siyasi mədəniyyət mövzusuna toxunmuşdur. Burada da siyasi mədəniyyət anlayışı, mahiyyət struktur və funksiyaları öz əksini tapmış, cəmiyyətin demokratikləşməsinin siyasi mədəniyyətə və siyasi mədəniyyətin, demokratik cəmiyyətə təsirindən siyasi fəallıq mədəniyyətindən, insan hüquqlarının qorunmasının siyasi mədəniyyətin vacib şərti olması problemlərinə aydınlıq gətirmişdir.Müəllif bu baxımdan qeyd edir ki, "*Demokratikləşmə prosesində yeni siyasi dəyərlər siyasi mədəniyyətin inkişafının əsas amilinə çevrilir. Siyasi mədəniyyətin köməyi ilə dəyərlər yeni nəslə ötürülür. Siyasi mədəniyyət və demokratik dəyərlərin inkişafı nəticəsində xalq özünü dərk edərək yeni dövlət yaradır və onu möhkəmləndirir*" (Rəcəbova, 2008: 3).

Deməli, bəşəriyyətin ümumi inkişafı, müxtəlif millətlərin, dövlətlərin yaranması, insanın şəxsiyyət kimi formalaşması prosesi siyasi mədəniyyət amili ilə sıx əlaqədardır. Fikrimcə, demokratik cəmiyyətdə insan hüquqlarının qorunmasında da siyasi mədəniyyət vacib şərtlərdən hesab olunur. Çünki məhz yüksək siyasi mədəniyyətə malik olan vətəndaşlar həm dövlət həm digər şəxslər qarşısındakı hüquq və vəzifələrini daha yaxşı dərk edirlər.

Azərbaycanda siyasi mədəniyyətlə bağlı tədqiqat aparıb, onun mahiyyəti, məzmunu, strukturu, funksiyaları, tipləri haqqında məlumat verənlərdən biri də professor H.Şirəliyevdir. Onun fikrinə görə, "*Siyasi mədəniyyət cəmiyyətin siyasi həyatında mühüm rol oynayır. O, siyasi proseslərə və təsisatlara müəyyən təsir göstərir. Onun sayəsində siyasi həyatın ənənəvi təşkilati formaları*

*mühafizə edilib qorunub saxlanır. Siyasi mədəniyyətin mühafizə funksiyası cəmiyyəti siyasi təlatümlərdən və kataklizmlərdən qoruyur*" (Şirəliyev, Əhmədov, 2014: 268).

Mövzu prof. K.Məmmədovun tədqiqatlarında həm tarixi, həm nəzəri, həm də metadoloji cəhətdən tədqiq edilmiş və orta məktəbdən başlayaraq, mədəniyyətin və tərbiyənin orta məktəblən şagirdlərə aşılanmasının metodik əsaslarının geniş şəkildə araşdırılmasının vacibliyi vurğulanmışdır.

Ümumilikdə siyasi mədəniyyətlə bağlı xarici və Azərbaycan tədqiqatçılarının fikrinə əsaslanaraq belə qənaətə gələ bilərik ki, siyasi mədəniyyət özünü insanın bütün fəaliyyət sahələrində göstərir. Onun sayəsində insan öz hüquq və maraqlarını müdafiə etmək bacarığına yiyələnir, cəmiyyətin sosial amilinə çevrilə bilir. Dəyişən mühitə adaptasiya olaraq öz şəxsi mövqeyini nümayiş etdirir. Siyasi mədəniyyətin hesabına müxtəlif siyasi sistemlər, partiyalar yaradılır və müəyyən siyasi çərçivədə fəaliyyət göstərir. Dövlət və vətəndaşlar arasında qarşılıqlı münasibət yaranır. Dövlətin bütövlüyünün və dövlətdə demokratik dəyərlərin qorunmasına şərait yaranır. Siyasi mədəniyyəti yüksək vətəndaşlar öz hüquq və azadlıqlarını daha yaxşı dərk edir.

60-cı illərin əvvəllərindən 1990-cı ilə qədər məktəb şagirdlərin siyasi tərbiyəsində son həlqə idi. O vaxtlar ölkə məktəblərində qüvvədə olan "İctimai elmlər" kursu idi. Kurs kütləvi praktikaya daxil edildiyi andan şagirdlərin ideoloji-siyasi tərbiyəsinə, onların marksist-leninizm nəzəriyyəsinin və partiya siyasətinin əsaslarını dərk etmələrinə, onu fəal şəkildə həyata keçirmək istəyinə töhfə vermək nəzərdə tutulurdu. İctimai elmin nəzəri əsasını marksizm-leninizm təşkil etdiyindən, otuz ildən artıq müddət ərzində kursda nəzərdən keçirilən problemlərin əsas spektri dəyişməz qalmışdır. Bunlara aşağıdakılar daxildir: dialektik və tarixi materializm - elmi dünyagörüşünün fəlsəfi əsası; kapitalizmin iqtisadi quruluşu və kapitalizmdən sosializmə keçidin inqilabi xarakteri; sosializm və kommunizm kommunist formasiyasının iki mərhələsidir; Sov.İKP sovet cəmiyyətinin aparıcı və istiqamətləndirici qüvvəsidir (Almond, Verba).

Bu dövrə münasbət bildirən K.Məmmədov yazır: "Son illərdə cəmiyyətdə gedən iqtisadi, ictimai-siyasi dəyişikliklər siyasi mədəniyyət tərbiyəsinə yeni münasibət formalaşdırmağı tələb edir. Bu da təsadüfi deyildir. Çünki Sovetlər birliyi dövründə (1917-1992) siyasi tərbiyə ümumbəşəri siyasi biliklərin öyrənilməsinə yox, yalnız kommunist ideologiyasının təbliğinə yönəlirdi. Yuxarıda qeyd etdiyimiz kimi, o tərbiyənin yeni bir tərkib hissəsi kimi qiymətləndirilirdi. Kommunist hakimiyyəti avtoritar siyasət həyata keçirməklə, öz ideologiyasını gənc nəslə də aşılamağa çalışırdı. Təlim və tərbiyə ocaqları da ideoloji mübarizələr məkanına çevrilmişdir. Bu səbəbdən də yeni dövrdə bu problemə neqativ münasibət formalaşmış, müstəqillik dövrümüzdə o diqqətdən kənarda qalmışdır. Elmi-tədqiqat işlərində, dərslik və dərs vəsaitlərində siyasi mədəniyyət tərbiyəsi kölgədə qalmışdır. Lakin həyat göstərir ki, bu problem bu günümüz üçün də aktual olaraq qalmaqdadır. Ümumbəşəri dəyərləri əks etdirən siyasi bilikləri gənc nəslə aşılamasaq, gələcək politoloqların yetişməsində əvəzsiz rol oynaya bilər" (Məmmədov, 2020: 38).

Alim haqlı olaraq "siyasi mədəniyyət tərbiyəsini bu günümüz üçün də aktual problem olaraq qaldığını göstərərək, onun pedaqoji ədəbiyyatda geniş şərhinə ehtiyacı olduğunu deyir" (Məmmədov, 2017: 39).

"Elmi-texniki tərəqqinin yaratdığı imkanlardan istifadə edərək onun məzmununa, forma, metod və vasitələrinin təkmilləşməsinə xüsusi diqqət ayırmaq dövrümüzün əsas tələblərindəndir. Hazırkı dövrün siyasi mədəniyyət tərbiyəsinin əsas məqsədi gənc nəsli vətənin, xalqın mənafeyinə xidmət edən ideyalarla, ümumbəşəri siyasi biliklərlə silahlandıraraq vətənpərvər, multikulturalizm ideyalarına sadiq olan şəxsiyyətlər yetişdirməkdən ibarətdir.

Onun məzmununa aşağıdakı məsələlər daxil edilir: - hər bir şagirdə ümumbəşəri və mütərəqqi, milli dəyərlərə əsaslanan siyasi biliklər aşılamaq; - cəmiyyətin ehtiyacına yönələn əmək növlərinə hörmətlə yanaşmaq və hər hansı bir əmək fəaliyyətinə hazır olmaq; - doğma yurdun, xalqın səadəti və azadlığı, Respublikamızın suverenliyi, ərazi bütövlüyünü qorumağa hazır olmaq; - uşaqları ədalətli ideyalar sisteminə tərəfdar olmaq, həm də bu ideyalara sadiq qalmaq ruhunda tərbiyə etmək; - onlarda şüurluluğu, vətəndaşlıq hisslərini və ictimai fəallığı artırmaq; - neqativ fakt və hadisələrə qarşı barışmaz olmaq; - döyüş və əmək ənənələrini qoruyub inkişaf etdirmək; -

şagirdlərin ictimai aktivliyini artırmaq üçün səmərəli forma və metodlardan istifadə etmək və s. (Məmmədov, 2020: 39-40).

Pedaqoji təcrübənin toplanması, elmi nəzəriyyənin zənginləşdirilməsi, "sosial sifariş" nəzərə alınmaqla, məktəb sosial elmin məqsədlərini və onun siyasi komponentinin təhsil vəzifələrini, tədris materialının məzmununda təcəssüm etdirirdi. Cəmiyyətin siyasi sistemi məktəbdə siyasi mədəniyyətin təbliğinin mahiyyətini dəyişdi. Bu, ilk növbədə, "İctimai elm" kursunun kurikulumlarında və ya kurikulum funksiyasını yerinə yetirən tematik planlarda, dərsliklərdə, qismən də tapşırıqların və yeni məzmun komponentlərinin uyğunlaşdırılmasını izah edən metodiki məktublarda öz əksini tapmışdır.

Müasir şəraitdə siyasi sistemə dair tədris materialının məzmununu seçmək üçün yeni vəzifələr və prinsiplər Azərbaycanda fərdin azadlığını və ləyaqətini təmin etmək üçün nəzərdə tutulmuş sosial transformasiyalar həyatın bütün sahələrində, o cümlədən siyasi sahədə özünü həyata keçirmək üçün ilkin şərtlər yaradır. Vətəndaşın getdikcə mürəkkəbləşən siyasi həyatına və siyasi özünüdərkinə aktiv uyğunlaşma təkcə əlverişli sosial şəraitin mövcudluğunu deyil, həm də insanın özünü təkmilləşdirməsini nəzərdə tutur.Ətrafdakı reallığı müstəqil təhlil etmək və qiymətləndirmək, öz maraqlarını və siyasi üstünlüklərini dərk etmək, onları yaradıcı şəkildə həyata keçirmək üçün şəxsiyyətin müəyyən xassələrinin və bacarıqlarının inkişafı insana öz müqəddəratını təyin etməyə, siyasətin müstəqil və məsuliyyətli subyektinə çevrilməyə imkan verir və ictimai münasibətlərin demokratikləşməsinə töhfə verəcək (Sedova, 1990).

Bu gün məktəblərdə şagirdlərin siyasi mədəniyyətinin formalaşdırılmasının pedaqoji modeli aşağıdakı yanaşmalar əsasında qurulur:

Siyasi təhsili daha yüksək səviyyəli strukturda-lisey təhsilində sistem və altsistem kimi nəzərdən keçirən sistem-məqsədli yanaşma üzrə;

Şəxsiyyətə kompleks təsir və yekun nəticənin yüksək keyfiyyətini nəzərdə tutan konstruktiv və formativ yanaşma üzrə;

Bilik, bacarıq və dəyər münasibətlərinin adekvatlığı.

Funksional-struktur paradiqmanı təmsil edən kurikulum yanaşması üzrə isə aşağıdakı komponentlər əsas elementə çevrildi: məqsəd qoyma, məzmun, pedaqoji texnologiyalar, rəyin qiymətləndirilməsi və həyata keçirilməsi texnologiyaları.

Bu yanaşmalara əsaslanaraq orta məktəb şagirdlərinin siyasi təhsilinin pedaqoji prosesinin bir sıra ən mühüm altsistemlərini ayırmaq olar.

Birinci altsistem siyasi mədəniyyətin tərbiyəsinin təbii və məqsədyönlü şəkildə təşkil olunmuş prosesi üçün rəhbər şərtləri müəyyən etmək üçün şagirdin şəxsiyyətinə xarici, ilk növbədə pedaqoji təsirlər paradiqması ilə təmsil olunur.

İkinci altsistem məktəb şagirdlərinin onların şüuruna, emosional quruluşuna və rasional qabiliyyətlərinə pedaqoji təsir impulslarını qavraması paradiqmasına aiddir. Burada söhbət təklif olunan siyasi informasiyanın inkişaf və ya rədd edilməsi mexanizmləri və amillərindən və onun izahı yollarından gedir.

Üçüncü alt sistem şəxsiyyətin əks xüsusiyyətlərinin təhlili paradiqması ilə bağlıdır. Aydındır ki, yuxarı sinif şagirdlərinin refleksiv qabiliyyətləri şəxsiyyətin psixotipindən və nəticədə onun sosial əlaqələr və sosial oriyentasiya sisteminə daxil edilməsi yollarından çox asılıdır.

Dördüncü altsistem yuxarı sinif şagirdinin idrak qüvvələrinin inkişaf səviyyəsinə və ya digər şəxsi xüsusiyyətlərinə uyğun olaraq pedaqoji hərəkətlərin fərdi transformasiyası, bilik, bacarıq, dəyər münasibətlərinin transformasiyası paradiqması ilə müəyyən edilir.

Beşinci altsistem yuxarı sinif şagirdlərinin siyasi mədəniyyətinin formalaşması prosesinə pedaqoji təsirlərin məcmusunun teleoloji əsaslandırılmış paradiqmasıdır ki, bu da şəxsiyyətin potensialını aktiv və ya passiv rejimdə reallaşdırmağa imkan verir.

Təqdim olunan alt sistemlərin maddi əsasları yuxarı sinif şagirdlərinin siyasi mədəniyyətinin formalaşması modelinin qurulduğu prinsiplər sistemini əvvəlcədən müəyyən edir (Shchitnikov, 2001: 192):

Şəxsiyyət yönümlü təhsil prinsipi, yəni şagirdin təhsil prosesinin obyekti və subyekti kimi tanınması;

Şəxsiyyətin müvafiq siyasi təhsil almaq azadlıq və hüquqlarının həyata keçirilməsi prinsipi;

Siyasi təhsilin məqsədləri və onlara nail olmaq yollarının planlaşdırılmasında şagirdlərin əməkdaşlıq və iştirak prinsipi;

Ümumbəşəri siyasi dəyərlərin şüur və tanınması prinsipi;

Tədris prosesinin fərdiləşdirilməsi və diferensiallaşdırılması prinsipi;

Siyasi təhsil kontekstində bilik, bacarıq və dəyər münasibətlərinin sinxronlaşdırılması və inteqrasiyası prinsipi;

Yuxarı sinif şagirdlərinin siyasi mədəniyyətinin formalaşmasına pedaqoji təsirin mürəkkəbliyi prinsipi.

Pedaqogikada adətən üç səviyyəli məqsəd müəyyən edilir: təhsil idealı, məqsəd və vəzifələr. Tədqiq olunan problem kontekstində yuxarı sinif şagirdlərinin siyasi mədəniyyətinin formalaşdırılması məqsədlərinin aşağıdakı təsnifatını təklif edirik: ümumi məqsədlər, əsas məqsədlər və əməliyyat məqsədləri.

Məqsəd qoymağa əsaslanan yuxarı sinif şagirdlərinin siyasi mədəniyyətinin formalaşdırılması modelinin işlənib hazırlanması bir sıra üstünlüklərə malikdir:

Məqsədlər təhsilin nəticələrinin qiymətləndirilməsi və əks əlaqənin həyata keçirilməsi üçün əsas şəraitə çevrilir;

Məqsədlər fərdi və qrup nailiyyətlərinin təhlilinin əsas müddəalarına çevrilir;

Məqsədlər şagirdlərin siyasi mədəniyyətinin formalaşdırılması strategiyasını və taktikasını əvvəlcədən müəyyən edir;

Məqsədlər şagirdlərin siyasi mədəniyyətinin tərbiyəsi məzmununun dozasının tənzimləyicisi kimi çıxış edir;

Yuxarı sinif şagirdlərinin siyasi mədəniyyətinin tərbiyəsi üzrə məqsədlərin işlənib hazırlanması prinsipi: Şəxsiyyətin və cəmiyyətin dinamikasına və ehtiyaclarına uyğunluq prinsipi; Proqnozlaşdırılan yekun nəticələrə uyğunluq prinsipi; mütərəqqi ənənələrə və milli tərbiyəyə uyğunluq prinsipi; Şagirdlərin siyasi mədəniyyətinin formalaşmasında dünya tendensiyalarına uyğunluq prinsipi; Müəyyən bir taksonomiyaya uyğun olaraq təhsil məqsədlərinin vergiyə cəlb edilməsi prinsipi (Məmmədov, 2020: 5).

## Nəticə

Müstəqillik dövründə siyasi mədəniyyət anlayışının işlənilməsində də bir sıra səhvlərə yol verilmişdir. "Milli pedaqogika, ağıl tərbiyəsi, situasiya, priyom və s. kimi yanlış yanaşmalar, çatışmazlıqlar monoqrafiyalarda, dissertasiyalarda öz əksini tapmış oldu. Əxlaq tərbiyəsi mənəviyyatın xeyli tərkib hissələrindən biri olduğu halda bir sıra tədris vəsaitlərində onun adı dəyişdirilərək «mənəvi tərbiyə» kimi verilmişdir. Çap edilmiş dərslik və dərs vəsaitlərində sistemlilik metodologiyasına əməl edilməmişdir.Belə tədqiqatlarda problemlərin məntiqi ardıcıllıqla öyrənilməsinə şərait yaranmır.Bu da pedaqogika elminin sistem şəklində qavranılmasına mane olur. Öyrənilən məsələlərin daxili əlaqələri pozulur ki, bu sistemli biliklərin əldə edilərək yadda saxlanılmasına mənfi təsir edir".

## Ədəbiyyat

1. Əfəndiyev, M. (2011). Politologiya. Bakı: Elm.
2. Əfəndiyev, M. (1998). Siyasi elmin problemləri. Bakı: Siyasət.
3. Onikova, L., Abarenkov, V., Averkin, A. (1987). Kratkiy politicheskiy slovar'. Moskva: Politizdat, 509 s.
4. Kelle, V., Koval'zon, M. (1981). Teoriya i istoriya (problemy teorii istoricheskogo protsessa). Moskva: Znaniye, 307 s.

5. Əmirov, M. (2008). Tarixin tədrisində şagirdlərdə siyasi mədəniyyətin formalaşdırılması üzrə işin sistemi: ped.e.d-ru al. dər. a. üçün təq. ed. dis.: 13.00.02; Azərb. Resp. Təhsil Nazirliyi, Azərb. Resp. Təhsil Problemləri İn-tu. 286 s.
6. İbrahimli, X. (2012). Politologiya. Bakı.
7. Rəcəbova, A. (2008). Cəmiyyətin demokratikləşməsində siyasi mədəniyyət amili. Bakı.
8. Şirəliyev, H., Əhmədov, Ə. (2014). Politologiya. Bakı: Apastroff.
9. Almond, G., Verba, S. Grazhdanskaya kul'tura. Politicheskiye ustanovki i demokratiya v pyati strana… https://www.labirint.ru›.
10. Məmmədov, K. (2020). Müstəqillik dövrümüzün pedaqoji problemləri. Bakı. 105 s.
11. Məmmədov, K. (2017). "Türk xalqlarının pedaqoji fikir tarixindən nümunələr". Mütərcim, 187 s.
12. Sedova, H. (1990). Sotsial'no-pedagogicheskiy analiz problem formirovaniya politicheskoy kul'tury u starsheklassnikov: Avtoref. dis ..... kand. ped. nauk.
13. Shchitnikov A. (2001). Formirovaniye politicheskoy kul'tury starshe klassnikov: Dis ...... kand. Ped., nauk: 13.00.01: Krasnoyarsk, 192 c. RGB OD, 61:02-13/1290-2

Göndərilib: 13.09.2022 Qəbul edilib: 18.11.2022

DOI: https://doi.org/10.36719/2706-6185/17/14-17

**Gülşən Seymur qızı Atakişiyeva**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
magistrant
a_gulsen00@mail.ru
https://orcid.org/0000-0003-2488-6478

# QAÇQINLAR İLƏ SOSİAL İŞİN MƏZMUNU VƏ İSTİQAMƏTLƏRİ

**Xülasə**

Məqalədə “risk qrupları”na daxil olan qaçqınlar ilə sosial işin fəaliyyət istiqamətləri müəyyənləşdirilmişdir. Nəzərə alınmışdır ki, bu fəaliyyət istiqamətləri qaçqın qruplarına daxil olan fərdlərin hər birinə xüsusi yanaşaraq həyata keçirilməlidir. Çünki, qaçqınlar dedikdə geniş kateqoriya nəzərdə tutulur. Buraya qadınlar, uşaqlar, kişilər, ahıllar və s. digər alt yarımqruplar daxildir. Sosial iş peşəsi qaçqınlar üçün mikro səviyyə, mezo səviyyə, makro səviyyədə fəaliyyət göstərə bilər. Həmçinin qaçqınlar ilə işləyən sosial işçi müəyyən peşəkar bacarıqlara malik olmalıdır.

***Açar sözlər:*** *risk qrupu, qaçqın, ehtiyac, qaçqın qadınlar, qaçqın uşaqlar, qaçqın ahıllar*

**Gulshan Seymur Atakishiyeva**
Azerbaijan State Pedagogical University
master
a_gulsen00@mail.ru
https://orcid.org/0000-0003-2488-6478

## Content and directions of social work with refugees

**Abstract**

The article defines the directions of social work with refugees who are included in "risk groups". It has been considered that these directions of action should be implemented with a special approach to each of the individuals included in the refugee groups. Because refugees are a broad category. It includes women, children, men, the elderly, etc. other subgroups are included.

The social work profession can operate at the micro level, meso level, and macro level for refugees. Also, a social worker working with refugees must have certain professional skills.

***Keywords:*** *risk group, refugee, need, refugee women, refugee children, refugee elderly*

## Giriş

Sosial iş bir ixtisas kimi əhalinin yoxsul, əzilmiş və problemli təbəqələrinin maraqları, mənafeləri və rifahı uğrunda vasitəçilik, vəkillik edən sferadır. Sosial iş ümumiyyətlə əhalinin həssas qruplarına diqqət yetirir. Sosial iş elə bir ixtisasdır ki, o, fərdlərə, qruplara, icmalara öz sosial funksiyalarını həyata keçirmək üçün onların bilik və bacarıqlarını artırır, onların öz məqsədlərinə çatmaları üçün belə insanlara münasib sosial şərait yaradır. Qaçqınlar da “risk qrupları” na daxildir (Məmmədova, 2019: 104).

Qaçqınlar – irqi mənsubiyyətinə, dini etiqadına, vətəndaşlığına, müəyyən sosial qrupa mənsub olmasına və ya siyasi əqidəsinə görə təqiblərin qurbanı olmaqdan əsaslı qorxduğu üçün vətəndaşı olduğu ölkədən kənarda qalan və həmin qorxu üzündən bu ölkənin himayəsindən istifadə edə bilməyən və ya istifadə etmək istəməyən və yaxud müəyyən vətəndaşlığı olmadığı halda öz daimi yaşadığı ölkə-sindən kənarda qalan, həmin qorxu üzündən oraya qayıda bilməyən və ya qayıtmaq istəməyən şəxsdir.

Qaçqınlar ölkələrini tərk etmələrinə səbəb olan problemlərlə yanaşı, getdikləri ölkələrdə də bir çox problemlərlə üzləşirlər. Qaçqınların problemlərini elmi və fənlərarası yanaşma ilə həll etmək lazımdır. Qaçqınlar ilə iş zamanı hansı sosial iş təcrübələrindən istifadə ediləcəyini müəyyən etmək

böyük əhəmiyyət kəsb edir. Bu baxımdan bu şəxslərin psixososial ehtiyaclarının dəyərləndirilməsi vacib amillərdəndir. Beləliklə, bu keçid sahəsini sosial işçilər idarə edirlər.

Levin sosial iş peşəsi qaçqınlar üçün üç müxtəlif səviyyədə fəaliyyət göstərə biləcəyini qeyd etmişdir (2).

- Mikro səviyyə
- Mezo səviyyə
- Makro səviyyə




**Mikro səviyyə -** Sosial işçi qaçqınlar ilə işin bu səviyyəsində həsas qrupun həyati tələbatlarının ödənilməsini əsas prioritet kimi qarşıya qoyur. Bu səviyyədə sosial işçi fərdə müdaxilə edir. Həmçinin, fərdlərin özlərinə yetərli olmaları üçün gücləndirmə addımları üzərində işlənilməlidir (Buz, 2008: 35).

**Mezo səviyyə** - Müdaxilənin bu səviyyəsində sosial işçinin əsas məqsədi qrup işindən istifadə edərək fəaliyyət göstərməkdir. Bu zaman müəyyən ərazi daxilində olan qaçqın ailə qrupları ilə işləyir. Bu səviyyədə təşkilati məsələlərin həll olunması əsas prioritetlərdən hesab olunur. Bu səviyyədə sosial işçinin qarşısında duran bir sıra məsələlər vardır ki, bunların həll edilməsinə yönəlmiş fəaliyyət həyata keçirməlidir. Bunlara fərdlərin dil öyrənməsi, qaçqın hüquqlarının öyrənilməsi, peşə kurslarına yönləndirilmə, qaçqın ailələrin yeni cəmiyyətə inteqrasiyası üzərində işləmək kimi bir sıra fəaliyyətlər aiddir (Tomanbay, 2013: 331).

**Makro səviyyə** - Müdaxilənin bu səviyyəsində dövlət səviyyəsində bir sıra addımların həyata keçirilməsi əsas addım hesab olunur. Sosial işçinin rolu qanunvericiliyin və rəsmi təcrübənin təkmilləşdirilməsi üzərində işləmək, bürokratik, hüquqi və cari problemləri həll etmək üçün yaradılacaq təşkilatlara dəstək olmaqdır. Bu səviyyə təhsil, səhiyyə, təşkilat yaratmaq kimi məsələləri əhatə edir (Tomanbay, 2013: 345).

Qaçqınlar ilə işləyən sosial işçi müəyyən peşəkar bacarıqlara malik olmalıdır. Bacarıq bəzi fitri xüsusiyyətlərlə əlaqəli ola bilsə də, o, çox vaxt qazanılmış bəzi davranışları, perspektivləri və münasibətləri ehtiva edir (Gencer, Güzel, 2021: 347). Bunlara aşağıdakıları qeyd edə bilərik.

- Empatik yanaşmadan istifadə etmək
- Həssas qaçqınlarla düzgün ünsiyyət
- Qanunvericiliyi bilmək
- Xarici dil bilmək

- Qaçqınların mədəniyyətini yaxşı bilmək
- Gedəcəkləri ölkənin mədəni və hüquqi aspektlərini yaxşı bilmək
- Ölkənin qaçqın siyasətini yaxşı bilmək və s.

Qaçqınlar ilə iş zamanı sosial işçinin bir neçə rolu vardır. Bunlara aşağıdakıları qeyd edə bilərik.

- Məlumatın verilməsi
- Vəkillik
- Resurslarla əlaqə
- Məsləhətin verilməsi
- Cəmiyyətlə inteqrasiya

Qaçqınlar ilə işləyən zaman əhalinin bir sıra risk qrupları ilə işləmək lazım gəlir. Bunlara qadınları, uşaqları, ahılları və s. göstərmək olar.

**Qadınlar:** Dünyada qaçqınların təxminən 50%-ə yaxınını qadınlar təşkil edir. Bu qadınlar atalarını və yaxud həyat yoldaşlarını itirmiş, müharibə, münaqişə zamanı fiziki və cinsi zorakılığa məruz qalmış ola bilərlər. Həmçinin, qaçqın düşərgələrində təhlükəsizliyin zəif olması və müşayiətsiz mühitin olması zorakılıq üçün endemikdir. Cinsi zorakılığın baş verməsi özlüyündə qadınlar üçün psixoloji və sosial problemlər yarada bilər. Bəzi cəmiyyətlərdə qadının cinsi zorakılığa məruz qalması, onun ailəsi tərəfindən kənarlaşdırılmasına gətirib çıxara bilər. Bəzən cinsi zorakılıq qurbanları hamilə olar. Buda tərkibində digər problemləri yaradar. Qadınların gəldikləri ölkədə insan alverinin qurbanı olma ehtimalı yüksəkdir. Bundan əlavə olaraq qaçqın qadınlar aşağıdakı digər problemlərlə də üzləşə bilər (6).

- Ailədaxili şiddət
- Qadın sünnətinin fiziki və psixoloji təsiri
- İşsizlik və qeyri-məşğulluq səbəbindən maliyə azlığı
- Valideyin məsləhətinin olmaması
- Müalicə olunmamış reproduktiv sağlamlıq problemləri
- Məhdud təhsil
- Məişət zorakılığı

**Uşaqlar:** Qaçqın uşaqlar beynəlxalq hüquqi müdafiə, həmçinin, peşəkar müdaxilə tələb edən ən həsas qrupdur. Dünyada baş verən münaqişələr və müharibələr milyonlarla uşaqların öz ölkələrindən kənarda yaşamağa məcbur etmişdir. Bu zaman uşaqlar ailələri ilə birlikdə və tək şəkildə yaşamalı olmuşlar. Münaqişə və müharibə dövründə uşaqlar psixoloji travmalara məruz qalır. Onlar işgəncənin şahidi olurlar, hərbi xidmətə məcbur edilirlər və yaxud ailə üzvlərini itirirlər. Bununla belə, onların gəldikləri ərazilərdə yaşadıqları travmalar və problemlər münaqişə və müharibə mühitində yaşadıqlarından az deyildir. Bu mərhələ uşağın inkişafının kritik mərhələsi hesab olunur. Bu mərhələ bu şəxsləri qəbul edən ölkələrdən bir sıra məsələlərə diqqət yetirməyi qarşıya qoyur. Bu zaman uşağın lazımi ehtiyaclarının təmin olunması və terapevtik, reabilitasiya, profilaktik proqramların həyata keçirilməsi, həmçinin, psixoloji və sosial proqramların həyata keçirilməsi əsas addımlar olaraq qəbul edilir. Təhsil almaq problemi demək olar ki, əksəriyyət qaçqın uşağın qarşılaşdığı problem hesab olunur. Milyonlarla qaçqın uşaq təhsil hüququndan məhrumdur (2). Buna görə, qaçqın uşaqları qəbul edən ölkələr uşaqların məktəblərə inteqrasiyası və təhsil hüquqlarının qorunması məqsədi ilə proqramlar hazırlayır. İnteqrasiya prosesində sosial işçi ən vacib rola malikdir.

Yaşadığı bu hadisələr uşaqda aşağıdakı təsirləri göstərə bilər:

- Gecikmiş inkişaf;
- Güvənmək problemi və dostluq münasibətlərinin qurulmasında yaranan çətinlik
- Özünə inamın aşağı olması
- Yaşından daha böyük davranma
- Narahatlıq hissinin güclü olması, xüsusilə yenidən hər hansısa bir yerdən ayrılma narahatlığı
- Kabus görmə, ürək döyüntülərinin tez-tez artması və bunu idarə edə bilməmək, diqqətsizliyin artması kimi simptomların yaranması

Qaçqınlar ilə işləyən zaman əsasən "stress modeli" konsepsiyasından istifadə edirik, bu konsepsiyanın əsas məzmunu ondan ibarətdir ki, bu zaman uşağın qarşılaşdığı stress ilə hansı dərəcədə mübarizə

apara biləcəyidir (Məmmədova, 2019: 167). Bu zaman uşağa lazım olan onun həyat ehtiyatlarıdır. Hansı ki, bu həyat ehtiyatları onun yaşadığı stressdən qurtulmasında köməkçi rol oynayacaqdır.

Ümumilikdə, uşaqların yeni mədəniyyətə uyğunlaşması valideynlərdən daha sürətli olur. Həmçinin, onların dili daha asanlıqla öyrəndikləri üçün bəzən tərcüməçi rolunu belə öz üzərlərinə götürə bilərlər.

**Ahıllar:** Ahıl qaçqınları 2 qrupda birləşdirə bilərik. İlk olaraq, keçmişdə qaçqın olaraq gəlib daha sonra ahıl olanlar, ikinci ahıl olaraq qaçqın olanlar olaraq qeyd edə bilərik. Ahıl qaçqınlar bir sıra problemlər ilə üzləşirlər. Bu səbəb ilə, sosial işçilər onlar ilə işləyən zaman bu problemləri diqqətdə saxlamalıdırlar. Bunlara aşağıdakılar aiddir (Zamanov, Əliyeva, 2015: 452).

- Ahıl qaçqınlar bir sıra post travmatik simptomların qurbanı ola bilərlər. Hansı ki, onların gəldikləri yerdə olan uzunmüddətli müharibələr, sosial, iqtisadi problemlər həmin fərdlərdə post travmatik simptomlara səbəb olur.
- Ahılların işgəncə və yaxud konsentrasiya düşərgələrində keçirdikləri vaxt onlarda demans xəstəliklərinin meydana gəlməsinə əsaslı surətdə şərait yaradır. Bu da ahıl şəxslərin çətin davranışına səbəb olur.
- Bəzi hallarda, ahıllara qulluq müəssisələrindəki fəaliyyətlər konsentrasiya düşərgələrində və ya həbsxanada yaşadıqları təcrübə ilə qarışdırıla bilər. Məsələn, işçilər gecə təhlükəsizlik yoxlamaları apararkən mühafizəçi, işgəncə verən kimi qəbul edilə bilər.
- Təkrarlanan müharibə travmasından sonra uzun müddət qala bilən və travmadan illər sonra inkişafedə bilən post travmatik simptomlar və stresslə əlaqəli psixosomatik xəstəliklər də nadir deyildir.
- Ahıllara qulluq müəssisələrindəki fəaliyyətlər konsentrasiya düşərgələrindəki və ya həbsxanadakı təcrübə ilə qarışdırıla bilər - məsələn: işçilər gecə təhlükəsizlik yoxlamaları apararkən onları mühafizəçi və yaxud işgəncə verən ilə qarışdırla bilərlər (7).
- Ahıl qaçqınlarda statusun itirilməsi əsas problemlərdən hesab olunur. Bəzi ahıl qaçqınlar icmanın hörmətli üzvü olmaq əvəzinə öz bacarıq və fikirlərinin gəldikləri yerlərdə qiymətləndirilmədiyini görürlər. Bu mədəni dəyişiklik depressiyaya, narahatlığa və ya ailə ilə münaqişəyə səbəb ola bilər.
- Ahıl qaçqınlar arasında sosial təcrid olunma, sosial şəbəkələr yaratmaq üçün lazım olan inamı inkişaf etdirməkdə çətinlik çəkən fərdlər daha çoxluq təşkil edir. Ahıl qaçqınların iş tapmaq imkanı, maliyyə resurslarının artırılması, dil öyrənmək imkanları digər yaş qruplarına görə daha çətindir (8).

## Nəticə

Nəticə olaraq qeyd edə bilərik ki, qaçqınlar ilə işləyən sosial işçi ilkin olaraq onunla hansı səviyyədə fəaliyyət göstərəcəyini aydınlaşdırmalıdır. İlkin addım olaraq bu xüsusi əhəmiyyətə malikdir. Çünki, həssas qrupun xüsusiyyətinə görə fəaliyyət seçmək problemin həll edilməsinə gətirib çıxarır. Fəaliyyət istiqamətini müəyyənləşdirdikdən sonra isə qaçqınların tərkib hissəsi olan risk qrupunu təyin etmək və onların psixososial tərəflərini müəyyən edərək prioritet müəyyənləşdirmək lazımdır.

## Ədəbiyyat

1. Məmmədova, R. (2019). Sosial işə giriş. Bakı: Ecoprint, 208 s.
2. http://auzefkitap.istanbul.edu.tr/kitap/sosyalhizmetlt_ao/gocvesoshiz.pdf
3. Buz, S. (2008). Qaçqınlar və Sosial İş Peşəsi. Sosial xidmət, s.34-39.
4. Tomanbay, İ. (2013). Beynəlxalq Miqrasiya, Sığınacaq və İnsan Alveri. İnsan Alveri Problemləri və Sosial İş. (Ed. H.Acar, N.Negiz, E.Akman) Sosial Siyasət və Dövlət İdarəçiliyi Komponentləri ilə Sosial İşdə: Əsaslar və Tətbiq Sahələri. 1-ci nəşr. Ankara: Maya Akademiyası, s.299-327.
5. Gencer, T., Güzel, B. Göç. (2021). İmmiqrantlarla İş və Sosial İş. Ankara: Nobel alimi, 518 s.
6. Zamanov, A., Əliyeva, H. (2015). Sosial işin əsasları. Bakı: Təhsil işçisi mətbəəsi, 452 s.
7. https://acikders.ankara.edu.tr/course/view.php?id=5374
8. https://refugeehealth.org.au

Göndərilib: 03.10.2022 Qəbul edilib: 14.11.2022

DOI: https://doi.org/10.36719/2706-6185/17/18-21

**Leyla Nəsib qızı İsmayılova**
Azərbaycan Dövlət Pedoqoji Universiteti
magistrant
ismayilovaleyla2000@gmail.com

# DÖVLƏTİN SOSİAL FƏALİYYƏTİNDƏ PENSİYA TƏMİNATININ YERİ

**Xülasə**

Məqalə belə bir postulata əsaslanır ki, hər bir dövlətin diqqət mərkəzində ölkə əhalisinin həyat şəraitinin yaxşılaşdırılmasına, yaşayış minimumunun təmin edilməsinə yönəlmiş sistem formalaşdırmaq durur. Bu məqsədlə dövlət müvafiq sosial siyasət həyata keçirir. Həmin siyasət cəmiyyətin həyat fəaliyyətindəki məhdudiyyətlərin aradan qaldırılmasına, layiqli həyat səviyyəsinin təmin edilməsinə nail olmaq üçün sosial-iqtisadi tarazlığı təmin edilməsinə nail olmaq üçün sosial-iqtisadi tarazlığı təmin etməyə yönəldilmiş tədbirlər sistemi kimi səciyyələndirilir. Müvafiq olaraq, sosial müdafiə sistemi, sosial xidmət, sosial müavinət, pensiya təminatı, pensiya hüququ və s. anlayışlar dövlətin sosial siyasətinin mühüm aspektləri kimi araşdırılır. Məqalədə Azərbaycan Respublikasında pensiya təminatı və bu sahədə aparılan ardıcıl islahatlar ətraflı təhlil edilir, göstərilir ki, dövlətimizin qanunverici və icraedici orqanları bu məsələləri özlərinin sosial siyasətində başlıca prioritet hesab edirlər.

***Açar sözlər:*** *dövlətin sosial siyasəti, sosial müdafiə sistemi, sosial xidmət, sosial müavinət, pensiya təminatı, pensiya hüququ, Azərbaycan Respublikasında pensiya islahatları*

**Leyla Nasib Ismayilova**
Azerbaijan State Pedagogical University
master
ismayilovaleyla2000@gmail.com

## The place of pension in the social activity of the state

**Abstract**

The article is based on such a postulate that the focus of every state is to form a system aimed at improving the living conditions of the country's population and ensuring the minimum living wage. For this purpose, the state implements an appropriate social policy. That policy is characterized as a system of measures aimed at eliminating restrictions on the life activity of the society, ensuring socio-economic balance in order to achieve a decent standard of living. Accordingly, social protection system, social service, social allowance, pension provision, pension right, etc. concepts are examined as important aspects of the state's social policy. In the article, the pension provision in the Republic of Azerbaijan and the successive reforms in this field are analyzed in detail, it is shown that the legislative and executive bodies of our state consider these issues as the main priority in their social policy.

***Keywords:*** *social policy of the state, social protection system, social service, social benefit, pension provision, pension right, in teh Respublic of Azerbaijan pension reforms*

## Giriş

Hər bir demokratik dövlətin əsas diqqət mərkəzində ölkə əhalisi və onların həyat şəraitinin yaxşılaşdırıldığı, yaşayış minimumunun təmin edildiyi sistem formalaşdırmaq durur. Bu məqsədlə dövlət müvafiq sosial siyasət həyata keçirir. Dövlətin sosial siyasəti cəmiyyətin həyat fəaliyyətindəki məhdudiyyətlərin aradan qaldırılmasına, layiqli həyat səviyyəsinin təmin edilməsinə nail olmaq üçün sosial-iqtisadi tarazlığı təmin etməyə yönəldilmiş tədbirlər sistemidir. Sosial siyasətdə dövlət əhalinin bütün təbəqəsinin maraq və tələbatlarını nəzərə almalıdır. Bu tələbat ödənilmədikdə dövlətin həyata keçirdiyi tədbirlər kifayət qədər səmərəli olmur və davamlılıq təmin edilmir. Dövlətin sosial siyasətində əsas yeri əhalinin sosial müdafiəsinin təmin edilməsi tutur. Bəs

sosial müdafiə sistemi nədir? *Sosial müdafiə sistemi* dövlətin əhalinin sosial problemlərini aradan qaldırmaq və minimum yaşayış gəlirini təmin etmək üçün gördüyü tədbirlər sistemidir. Hər bir dövlətdə sosial müdafiə sisteminin vəziyyəti əhalinin rifah səviyyəsini təyin edən başlıca prioritetdir.Sosial müdafiə sisteminə nə qədər çox diqqət yetirilirsə, əhalinin sosial problemləri bir o qədər tez öz həllini tapır. Ümumiyyətlə, sosial müdafiə sisteminin əsas məqsədi əhalinin mövcud problemlərini həll etməyə yönəldilmiş sosial və iqtisadi tədbirlər toplusundan ibarətdir.

Sosial siyasətin qarşıya qoyduğu məqsədlərə nail olmaq üçün onun həyata keçirilmə **üsullarına** xüsusi diqqət yetirilməlidir. Burada seçim əhalinin sosial müdafiəsinin istiqamətləri və ya sahələri ilə bağlıdır. Bura aid edilir:

- əhaliyə sosial xidmətlərin göstərilməsi;
- əlillərin və sosial müdafiəyə ehyiyacı olan digər kateqoriyalı şəxslərin sosial müdafiəsi;
- sosial müavinət, sosial yardım və kompensasiyaların ödənməsi;
- pensiya təminatı (Rəcəbli, 2012: 6).

Sosial müdafiə tədbirlərinin əsas diqqət mərkəzində olan bu həssas qruplara eyni zamanda dövlət tərəfindən sosial xidmət də göstərilir. Sosial xidmət dedikdə dövlət tərəfindən təyin edilmiş şəxslərin onların məişətdəki ehtiyaclarının ödənilməsinə köməyi nəzərdə tutulur.

Dövlətin sosial fəaliyyətində **pensiya təminatı sistemi** xüsusi yer tutur. Çünki pensiya təminatı əhalinin ən həssas qrupunu əhatə edir və onların problemlərinin həlli sosial vəziyyətinin yaxşılaşdırılmasına səbəb olur. Həm də pensiya təminatı daha geniş əhali kütləsini əhatə etdiyinə görə daim diqqət mərkəzində saxlanılır. Sosial təminatın bir növü olan pensiya qanunla nəzərdə tutulan formada təyin edilir və müvafiq qanunvericiliyə əsasən tənzimlənir. Özünün çox çalarlılığına görə seçilən pensiya əhalinin müəyyən yaş qrupuna, habelə müxtəlif səbəblərə görə təyin edilən dövlət ödənişləridir.

Pensiya latın sözü olaraq "pensio" sözündən götürülüb, hərfi mənası "ödəmə "deməkdir (Əşrəfova, 42). İzahlı lügətlərə də baxsaq görərik ki, pensiya qanunla müəyyən edilən hallarda əlilliyə, qocalığa və ya sağlamlıq imkanları məhdud vətəndaşlara dövlət tərəfindən verilən pul yardımıdır. Həmçinin elmi ədəbiyyatda kifayət qədər geniş araşdırılan pensiya anlayışına müxtəlif yanaşmalar mövcuddur. R.Əşrəfovanın fikrincə, pensiya əmək qabiliyyətini itirən yaşlılara, əlillərə və ailə başçısını itirənlərə yaşaya bilməsi üçün dövlət və qeyri-dövlət təşkilatları tərəfindən verilən ödəmələrdir (Əliyev, 2007: 43). Belə bir nəticəyə gəlmək olar ki, dövlətin sosial fəaliyyətində pensiya öz tələbatlarını ödəyə bilməyən əhali qruplarının minimum yaşayış imkanlarını yaxşılaşdırmağa yönəldiyinə görə xüsusi əhəmiyyətə malikdir. Dövlətin həyata keçirdiyi sosial təminat sisteminin əsas hissəsini təşkil edən pensiya təminat sisteminin özünəməxsus hüquqi aspekti, mahiyyəti və xarakteristikası var. Onun hüquqi aspektindən bəhs edərkən xüsusilə qeyd etmək lazımdır ki, pensiya hüquqi münasibətlər çərçivəsində fəaliyyət göstərən bir sistemdir. Pensiya hüquq münasibətləri bütün pensiya sisteminin həyata keçirilmə prosesini tənzimləyir. Mayıs Əliyevin yanaşmasına görə, pensiya hüquq münasibətləri anlayışı altında qanunun müəyyən etdiyi yaş həddinə çatdıqda və ya pensiyanın hər hansısa bir növünü əldə etmək statusu yarandıqda həmin şəxslər ilə sosial təminat orqanları arasında pensiyaların təyin edilməsi zamanı yaranan və sosial təminat hüquq normaları ilə tənzim olunan ictimai münasibətlər başa düşülür (Azərbaycan Respublikasının Ailə Məcəlləsi, 129-cu maddə, 172).

Pensiya hüququ qanunda müəyyən edilən şərtlərdən hər hansı biri olduqda mövcud olur:

-yaşa görə pensiya almaq hüququ yarandıqda;

-həssas qruplara aid edilən, sağlamlıq imkanları məhdud şəxs statusu aldıqda (əlilliyə görə);

-ailə başçısını itirdikdə;

-müəyyən müddət peşə fəaliyyəti ilə məşğul olaraq qanunla müəyyən edilən iş stajı əldə etdikdə;

Vətəndaşlarla sosial təminat orqanları arasında pensiya hüquqi münasibətlər qanunla müəyyən edilən konkret vaxtadək davam edir və pensiyanın növünə əsasən dəyişir. Məsələn, əgər hər hansı bir şəxs müvəqqəti olaraq əmək qabiliyyətini itirdiyinə görə əlil statusu ilə pensiya alırsa, bu müddət başa çatdıqdan sonra həmin şəxsin pensiya almaq statusu qüvvədən düşmüş olur (Əliyev, 2007: 172-173).

Pensiya sistemi özü çox geniş anlayışdır və qanuna əsasən sosial sığorta prinsipi əsasında formalaşan pensiya sistemi xarakterik xüsusiyyətlərinə görə bir neçə qrupa ayrılır. Burada iki əsas qolu fərqləndirmək vacibdir: əmək pensiyaları və sosial pensiyalar. Əmək pensiyalarına bunlar daxildir:

-yaşa görə,
-əlilliyə görə,
-ailə başçısını itirməyə görə,
-xidmət illərinə görə,

Xidmət illərinə görə pensiyalarına daxil olduğu halda, sosial pensiya qrupuna aid edilmir (Əliyev, 2007: 43-45).

Azərbaycanda pensiya sistemi tədricən təkamül yolu keçmiş, müxtəlif dəyişikliklərə məruz qalmışdır. Onun baza hissəsi, zaman keçdikcə pensiya almaq hüququ dəyişdirilmiş pesiya,yaşı artırılmışdır. Pensiya sisteminin müstəqillikdən əvvəlki dövrünə baxsaq görərik ki, onun mahiyyəti özünü hazırda daha çox doğruldur. Belə ki, sovet hakimiyyəti dövründə pensiya almaq imkanları olduqca məhdud idi. Daha çox dövlət öz mənafeyinə uyğun pensiyanı müəyyən əhali kateqoriyasına şamil edirdi. Həm də sovet hakimiyyəti dövründə pensiya sözünün yerinə daha çox təqaüd terminindən istifadə edirdilər. Mövcud sistemə əsasən dövlət tərəfindən əsas xüsusi statusa malik şəxslərə təqaüd verildiyi halda, 1935-ci ildən etibarən pensiya almaq hüququ əldə edən kolxozçulara pensiyanı dövlət deyil, onların işlədiyi kolxoz verirdi.

Pensiya sahəsində olan bu qeyri-stabillik balanslı olmayan xərclərin yaranmasına səbəb olurdu. Buna görə də ölkəmiz müstəqillik əldə etdikdən sonra pensiya sahəsində olan disbalansı aradan qaldırmağa cəhd göstərdi. İlk öncə sovet hakimiyyəti dövründən qalan sosial sığortaya əsaslanmayan pensiya təminat sistemi dəyişdirildi. Nəzərə alsaq ki, müstəqillik əldə etdikdən sonra ölkənin bütün iqtisadi, siyasi və sosial sferalarında əsaslı dəyişikliklər baş verdi. Buna əsasən bazar iqtisadiyyatına keçid edildiyi yeni şəraitdə artıq bu sistemin özünü doğrultmadığı aydın oldu. Buna görə də dövlət sosial fəaliyyətində əsaslı dəyişikliklər edərək pensiya təminat sisteminə aid bir sıra uğurlu qərarlar qəbul etdi. Həm də burada təkcə keçmiş təcrübəyə tənqidi yanaşmaqla kifayətlənməyib, beynəlxalq təcrübələrdən də faydalanmışdır.

Pensiya sahəsində ilk əsaslı addım 2001-ci il iyulun 17-də atılmış "Azərbaycan Respublikasında Pensiya İslahatı Konsepsiyası" (2001-2005-ci illər) qəbulu edilmişdir. Bu qanuna əsasən sovet hakimiyyəti dövründən qalmış pensiya yığımları sığorta-pensiya sistemi ilə əvəz etdi (Azərbaycan qəzeti, 2011: 6). Yeni qanun əsasən hər kəsin işlədiyi müddət ərzində dövlətə vergi olaraq ödədiyi məbləğin onun fərdi uçot hesabında toplanmasını nəzərdə tuturdu. Belə hesab edilir ki, bu yenilik bazar iqtisadiyyatına keçmiş ölkəmizin sosial münasibətlər sisteminə müsbət təsir göstərəcək. Əhalinin maddi tələbatları ilə minimum yaşayış gəliri arasında olan fərqi azaltmaq istiqamətində aparılan tədbirlər tədricən öz effektini verməyə başlayırdı. 2006-ci il yanvarın 1-dən təsdiq edilən qərara əsasən ölkədə əmək pensiyaları sosial sığorta prinsipi əsasında təyin edilməyə başlandı. Bu tədbirlər tədricən həyata keçirildiyinə görə mənfi effekt vermədən, insanların yeni mühitə tam inteqrasiyasını təmin etməklə aparılırdı. Qanunda daim edilən əlavə və dəyişikliklər sosial sahədə dövlətin qayğısından xəbər verir. 2010-cu il yanvarın 1-dən etibarən qüvvəyə minən qanuna görə hər il 6 ay artırılmaqla kişilər üçün 63 yaş, qadınlar üçün isə 60 yaş müəyyənləşdirilmişdir. Yaş həddinə edilən növbəti yeniliklərdən biri isə Əmək pensiyaları haqqında qanunun 7-ci maddəsinə əsasən, kişilər üçün yaş həddi 2017-ci il iyulun 1-dən başlayaraq 2021-ci ilin iyulun 1-dək, qadınların yaş həddi 2017-ci ilin iyulun 1-dən başlayaraq 2027-ci ilin iyulun 1-dək hər il 6 ay artırılaraq 65 yaşa çatdırılması nəzərdə tutulmuşdur (6). Atılan bütün bu addımlar əhalinin sosial müdafiəsində sığorta sisteminin daha da gücləndirilməsindən xəbər verir.

Dövlətin sosial fəaliyyətində pensiya təminat sistemində əlilliyə və **ailə başçısını itirməyə görə pensiya** almaq hüququ da mühüm yer tutur. Müasir dövlətçilik ənənələrinə görə, insanların zəruri tələbatlarının ödənilməsi, ehtiyacı olan şəxslərə qanunların müəyyən etdiyi çərçivədə kömək göstərilməsi daim diqqət mərkəzində olmuşdur. Əlilliyə görə pensiya əsasən sağlamlıq imkanları məhdud olan şəxslər üçün təyin edilmiş dövlət ödənişləridir. Respublikamızın qanunlarına əsasən əlillik anadan gəlmə ola, hər hansısa bir xəstəlikdən sonra yarana və ya müəyyən iş qəzası nəticəsində baş verə bilər. Pensiya sistemi ilə bağlı verilən qərarlara uyğun olaraq əlilliyə görə verilən pensiyalar onun yaranma səbəbinə əsasən daimi və ya müvəqqəti ola bilər. Əmək qabiliyyətinin itirilmə dərəcəsinə görə qanunla təsdiq olunmuş formada əlilliyin müxtəlif dərəcələri

təyin edilir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 29 avqust tarixli 99 nömrəli qərarı ilə təsdiq olunmuş "Əlilliyin müəyyən olunması meyarlarına dair" Əsasnamədə əlilliyin birinci, ikinci, üçüncü olmaqla üç dərəcəsi müəyyənləşdirilmişdir. Əlilliyə dair növbəti sənəddə "Tibbi sosial ekspert komissiyaları" haqqında əsasnamədə hansı səbəblərin əlillik hesab edildiyi göstərilmişdir. Azərbaycan Respublikasının əlilliklə bağlı qərarında bildirilir ki, əlilliyin hansı səbəbdən baş verməsi təyin ediləcək pensiyanın şərtlərinə təsir göstərmir. Hərbi xidmət zamanı yaranan əlilliyə görə pensiya təyin edilməsinin iki əsas şərti var. Burada xidmət dövründə və xidmətdən buraxıldıqdan sonrakı üç ay ərzində əlilliyin yaranması nəzərdə tutulur. Əgər hərbi xidmətdən sonrakı üç ay ərzində həmin şəxsdə əlillik yaranıbsa mütləqdir ki bunun səbəbi xidmət zamanı aldığı zədə və travma ilə bağlı olsun. Qanunda yer alan digər məsələ isə ailə başçısını itirməyə görə pensiya hüququdur. İnsanlara təqdim edilən bu hüquq ilk Azərbaycan Respublikasının Ailə Məcəlləsində öz əksini tapmışdır (Azərbaycan Respublikasının Ailə Məcəlləsi, 129-cu maddə, 129). Elmi ədəbiyyatlarda bu pensiyaya ailə başçısı itirildikdə həmin ailənin kifayət qədər yetərli əmək qabiliyyəti olmayan üzvlərinə dövlət tərəfindən ödənilən pul yardımı kimi izah verilmişdir. Burada ailə başçısının ölümünə görə dedikdə sadəcə onun vəfat etməsi nəzərdə tutulmur, eyni zamanda itkin düşməsi faktı da bura daxil edilir. Ailə başçısı vəfat etdiyi zaman ilk öncə onun ailə üzvləri araşdırılır və əgər ər-arvad arasında ölümdən öncə nikah pozulmuşdursa, onda həmin şəxslərin pensiya almaq hüququ olmur. Həmin şəxslər arasında mövcud olan dini nikah pensiya hüququ üçün əsas götürülə bilməz. Bununla yanaşı, əgər ailə başçısının ögey övladları varsa və azı beş il onları himayəsində saxlayıbsa bu zaman həmin övladların da digərləri ilə eyni pensiyanı almaq hüququ yaranır (7).

Bütün bu qərarları ilə dövlət sosial sferasını tənzimləməklə əhalinin rifah səviyyəsini yaxşılaşdırmağa çalışır. Zamanın tələbinə uyğun təkmilləşdirilən sosial təminat sistemi, o cümlədən pensiya təminatı zaman keçdikcə öz effektini verməyə başlayır. Nəzərə alsaq ki, bir ölkənin insan kapitalının inkişafı əhalinin həyat səviyyəsindən asılıdır, ona görə bu istiqamətində atılan addımların ictimai tərəqqi baxımından müstəsna əhəmiyyət daşıdığı aydın olar (8).

## Nəticə

Nəticə olaraq qeyd etməliyik ki, pensiya sistemi əhalinin kifayət qədər geniş təbəqəsini əhatə etdiyinə görə bu sahənin inkişafı ümumi sosial rifahın qaldırılmasına ciddi təsir göstərir. Odur ki, pensiya sisteminə nə qədər çox diqqət ayrılırsa bir o qədər də əhalinin güzəranı yaxşılaşır. Bunu nəzərə alan Azərbaycan Respublikasının qanunverici və icraedici hakimiyyət orqanları bu həssas əhali qrupuna göstərilən diqqət və qayğını özlərinin sosial siyasətində başlıca prioritet hesab edir, ardıcıl islahatlar aparmaqla pensiya sistemini daim təkmilləşdirməyə çalışırlar.

## Ədəbiyyat

1. Rəcəbli, H. (2012). Azərbaycan Respublikasının sosial Müdafiə Sistemi (Ali məktəblər üçün dərs vəsaiti) Bakı: MBM, 6 s.
2. Əşrəfova, R. Azərbaycanda Pensiya təminatı sisteminin formalaşması və təkmilləşməsi.Bakı, s.42-43.
3. Əliyev, M. (2007). Sosial təminat hüququ (dərslik). Bakı, s.43-45, s.172-173.
4. Azərbaycan Respublikasının Ailə Məcəlləsi. 129-cu maddə.
5. Azərbaycan qəzeti. (2011). 18 oktyabr, 7 s.
6. Yaşa görə əmək pensiyası məq. (https://www.sosial.gov.az/category/yashagoreemekpensiyasi)
7. https://unec.edu.az/application/uploads/2016/07/bayramov_rashid.doc
8. https://www.sosial.gov.az/tarixi

Göndərilib: 21.09.2022 Qəbul edilib: 08.11.2022

DOI: https://doi.org/10.36719/2706-6185/17/22-25

**Könül Xeyrulla qızı Xalilova**
Xəzər Universiteti
doktorant
kh.konul@gmail.com

# AMERİKA ƏDƏBİ MÜHİTİNDƏ MƏNƏVİ-ƏXLAQİ PROBLEMLƏRİN TƏCƏSSÜM XÜSUSİYYƏTLƏRİ

**Xülasə**

Təqdim olunmuş məqalədə II dünya müharibəsindən sonrakı dövrdə həyatın yeknəsəqliyi, Amerikanın patriarxal əyalət gerçəkliyi təsvir olunur. Əsasən bu əhval-ruhiyyədən yaxa qurtarmaq istəyi, mənəvi böhran problemlərinin bədii ədəbiyyatda təcəssüm xüsusiyyətləri təhlil olunur. Məqalədə XX əsrin 50-ci illərinin həyat tərzini, insanların üz-üzə gəldiyi problemlərin əks olunma problemləri şərh edilir. Belə nəticəyə gəlinir ki, o dövrdə Amerikada hələ “kütləvi cəmiyyət”, bitniklərin və hippilərin timsalında baş qaldıran kontrkultura ilə çıxış edən gənclər hərəkatı və bu hərəkatla yanaşı, onunla paralel şəkildə cərəyan edən “seksual inqilab”dan əsər - əlamət yox idi. Lakin onların rüşeymləri artıq mövcud idi.

***Açar sözlər:*** *cəmiyyət, əxlaq, müharibə, roman, yazıçı*

**Konul Kheirulla Khalilova**
Khazar University
PhD student
kh.konul@gmail.com

## Characteristics of embodiment of spiritual-moral problems in the American literary environment

**Abstract**

The presented article describes the monotony of life in the post-World War II period, the patriarchal provincial reality of America. Mainly, the desire to get rid of this mood, the characteristics of the embodiment of moral crisis problems in fiction are analyzed. The article describes the lifestyle of the 1950s, the problems of reflecting people's problems. It is concluded that at that time in America, there were still no signs of the "mass society", the counterculture youth movement in the form of beatniks and hippies, and the "sexual revolution" that was taking place in parallel with this movement. But their germs already existed.

***Keywords:*** *society, morality, war, novel, writer*

## Giriş

Məlumdur ki, XX əsrin əvvəllərindən etibarən bədii yaradıcılıqda dünyanı əks etdirmənin alternativ yolları axtarılır, bədii əksetdirmənin tipologiyası kəskin şəkildə dəyişirdi. Bu proses müəyyən mənada dövrün özünün spesifikası, o zaman baş verən hadisələrin dinamikası və digər mühüm məsələlərlə bağlı idi. O zaman Amerika cəmiyyətində “böyük depressiya” yaşanırdı, bu isə hər şeydən öncə cəmiyyətdə illər boyu gedən iqtisadi, ideoloji, siyasi və digər proseslərin yekunu olmaqla, ədəbiyyat və ümumən bədii təfəkkürdə qeyri-ənənəvi üslub meyllərinin yaranması, öz iradəsini digər hadisələrə diktə etməsi ilə nəzərə çarpırdı. Bu əsərlərdə günün tələbləri, insani münasibətlərdə baş verən böhran və bəşəri dəyərlər arasında ziddiyyət, onların bir insan ömrü boyunca doğurduğu təbəddülatlar qəribə və son dərəcə orijinal ədəbi vasitələr müstəvisində açılır, süjet, kompozisiya və bədii təhkiyənin yeni, indiyə qədər sınanılmamış üsulları meydana gəlir.

Müharibədən sonrakı amerikan-yəhudi ədəbiyyatı əvvəlkindən yəhudilərin faciəvi təcrübəsindən doğan tarixi kəskin dərketmə hissilə fərqlənir. II Dünya müharibəsi zamanı yəhudilərin Avropada yaşadığı dəhşətlər dünyanın digər yerlərində yaşayan Musa qövmünü də silkələyərək, onların təhtəlşüurunda özünə yer etmiş tarixi qeyri-stabillik duyğusunu yenidən alovlandırdı. Kütləvi təqiblərdən, mühacirətlərdən, əsir düşərgələrində yaşananlardan və digər iri miqyaslı fəlakətlərdən sonra yəhudilər üçün dini, siyasi və etnik özünütəyinetmədən öncə ekzistensial özünütəyinetmə mühüm əhəmiyyət daşımağa başladı. Ona görə də müharibədən sonrakı yəhudi-amerikan ədəbiyyatının əsas problemi "İnsan olmaq nə deməkdir?" sualına cavab tapmaqdan ibarət idi (Hassan, 2002: 113). Bu mənada təsadüfi deyil ki, Amerika ədəbiyyatında II Dünya müharibəsi - insan şəxsiyyətini qiymətdən salan zaman haqqında ən rəngarəng və ən parlaq əsərlər məhz yəhudi-amerikan yazıçıları tərəfindən yazıldı.

Amerika ədəbiyyatında yəhudi mənşəli yazıçılar üçün milli kimlik məsələsi həmişə aktual olmuşdur. Digər tərəfdən də sosial və mənəvi özgələşmə mövzusu onlar üçün heç vaxt aktuallığını itirməyən əbədi mövzulardan idi. Bütünlükdə yəhudiliyə aid olan bu köklü problemlər yalnız amerikan-yəhudi ədəbiyyatının mövzu dairəsi ilə məhdudlaşmır, dünyanın digər ölkələrində yaşayan yəhudi yazarlar da öz yaradıcılıqlarında mütəmadi olaraq onlara müraciət edirdilər. Uzun əsrlər boyu özlərinin ayrıca ərazisinin və dövlətinin olmaması, dil fərqliliyi, assimilyasiya prosesi və ona qarşı çıxma cəhdləri yəhudiliyin qlobal problemlərindən sayılırdı. Ona görə də yəhudi milli kimliyi məsələsi ilk növbədə tarixi, sosial və siyasi səbəblərlə izah olunmalıdır.

XX əsrin ortalarında amerikan cəmiyyətində mobilliyə münasibət köklü şəkildə dəyişmişdir. İndi belə hesab olunur ki, yalnız oturuşmuş cəmiyyətdə uğur qazanmaq olar. Cəmiyyətdə vaxtı ilə onun onurğa sütununu təşkil edən insanlara münasibət dəyişdi. Belə hesab olunur ki, aramsız hərəkət insana ətrafdakı əşya və hadisələri adekvat şəkildə dərk etməyə - onların daxilinə nüfuz edib mahiyyətlərini üzə çıxarmağa, onları bir-birinə calamağa, onlar haqqında ətraflı və düzgün təsəvvür əldə etməyə imkan vermir: onun protaqonistləri hər şey haqqında səthi fikirlər söyləməklə kifayətlənirlər (Cantor, 1994: 78).

Amerika cəmiyyətinin böhranının artıq iki müharibəsi arasındakı dövrdə böhran müxtəlif yönümlərdən Heminqueyin, Folknerin, Fitsceraldın, Steynbekin və digər sənətkarların əsərlərində öz bədii təcəssümünü tapırdı. İkinci dünya müharibəsi və ondan sonrakı dövr bu böhranın nəinki zəifləməsinə, yaxud yoxa çıxmasına, əksinə, onun daha da dərinləşməsinə və yeni çalarlar kəsb etməsinə səbəb oldu. Müharibə dövründə və sonrakı onilliklərdə amerikan gəncliyinin əhvalruhiyyəsi özünün adekvat ifadəsini yaradıcılıq yoluna yeni qədəm basan bəzi sənətkarları, o cümlədən Cerom Selincerin yaradıcılığında, ilk növbədə onun məşhur "Çovdarlıqda uçurumun üzərində" romanında tapmışdır. Bütövlükdə roman 17 yaşlı Holden Kolfildin həm yaşının, həm də ətraf aləminin ona təsirindən aldığı təəssüratlarının - daxili aləminin bədii ifadəsidir: yeniyetmə gənc ətraf aləmlə arasında dərin uçurum yarandığını hiss edir və bunu bir şəxsiyyət kimi emosional və intellektual böhran kimi yaşayır. Holden Kolfild zəngin ailədə dünyaya gəlmişdir və təbii ki, yüksək nüfuza malik olan bahalı, özəl məktəbdə təhsil alır. Lakin ailədə rəhbər tutulan mənəvi-əxlaqi prinsiplər və özəl məktəbdə hökm sürən əhval-ruhiyyə yeniyetməni qane etmədiyindən onda kor-təbii şəkildə formalaşan hələ son dərəcə sadəlövh olan, lakin sağlam bəşəri təməl üzərində qurulmuş prinsiplərə uyğun gəlmədiyinə görə o, məktəbdən qaçır. Məhz yaşın spesifikası və ailə tərbiyəsi Selincerin qəhrəmanının dünyaya münasibətini müəyyən edən amillərdir (Bunbury, 1995: 78). XIX əsrin sonu - XX əsrlərdə özgələşmənin dərinləşməsi ilə əlaqədar olaraq qərb ədəbiyyatlarında mənəvi əxlaqi problemlərin ədəbi-bədii fikirdə psixi pozuntusu, cismani mərəz kimi təcəssümü aparıcı mövzulardan birinə çevrilmişdir. Çexovun "Altıncı palata", T.Mannın "Möcüzəli dağ", Sartrın "Azadlıq yollarında", Kamünin "Taun" əsərləri buna misal ola bilər. O, cəmiyyətin və insanların eqoizminə qarşı öz eqoizmi ilə çıxış edir. Bu baxımdan onun etirazı, 50-ci illərdə bitniklərin və hippilərin timsalında istehlak cəmiyyətinə qarşı keçən əsrin 50-ci illərində yayılmış gənclər hərəkatının ideologiyasına tamamilə uyğun gəlir. Holden apriori cəmiyyətin onun nümayəndəsi olduğu sosial təbəqə üçün yaratdığı imkanlardan imtina edir. O nəyin bahasına olursa olsun cəmiyyətin iyerarxiya sistemində onun üçün nəzərdə tutulmuş "pillə" də qərarlaşmaqdan imtina edir. Onu da qeyd etmək lazımdır ki, müəllif keçən əsrin 60-cı illərində Amerika cəmiyyətində hökm sürən böhran durumunun təsviri ilə kifayətlənməmiş, onun get-gedə 70-ci və 80-ci illərdə dərinləşməsi və faktiki olaraq cəmiyyəti mənəvi fəlakət uçurumu

qarşısında qoyması, müəyyən mənada hətta bu uçuruma yuvarlanması prosesi təsvir olunmuşdur; əgər Selincerin qəhrəmanı Holden Kolfild hələ beyzbol ketçeri statusunda uşaqların, yəni yetişməkdə olan yeni nəslin nümayəndələrini "Çovdarlığın kənarında" olan uçuruma yuvarlanmaqlarının qarşısını almaq ümidindədirsə, Apdaykın personajı Harri Enqstrom artıq bu missiyanı həyata keçirməkdən ümidini üzmüşdür. Bu əlbəttə ki, ilk növbədə cəmiyyətdə böhran tendensiyalarının dərinləşməsi ilə bağlıdır. Lakin onu da qeyd etmək lazımdır ki, Apdayk tetralogiyada bir romandan digərinə adlayan dovşan obrazı vasitəsilə bu böhranın get-gedə dərinləşməsinin, geriyədönməz xarakter kəsb etməsini ardıcıl şəkildə təcəssüm etməyə nail olmuşdur. Qeyd etmək lazımdır ki, ədəbi ictimaiyyət yüksək bədii vasitələrlə sosial problematikanı təcəssüm etmiş sənətkarın əməyini yüksək qiymətləndirmişdir: sənətkar ədəbi tənqidçilərin milli cəmiyyətin, ABŞ-da ən qədim sayılan Pulitser və digər mükafatlara layiq görülmüşdür. Mükafat alınması ilə bağlı söylədiyi nitqlərdən birində Apdayk göstərirdi ki, "Dovşan haqqında tetralogiyasında onun əsas vəzifəsi qəhrəmanın adı normal mövcudluğunu göstərməklə bağlıdır. Bu, adi və bütün Amerika üçün "orta insanı təcəssüm edən qəhrəmandır" (Frederick, 2004: 82). Məlumdur ki, hər bir obrazda, xüsusilə müsbət qəhrəmanda sənətkar bir qayda olaraq özünün bəzi xassələrini inikas etməyə cəhd göstərir. Onu da qeyd etmək lazımdır ki, görkəmli yazıçılar bir qayda olaraq özlərini yalnız müsbət rakursda təqdim etməklə kifayətlənmirlər, mənfi cəhətlərini, xüsusilə hər bir insana xas olan fobiyalarını da əks etdirməklə onlardan yaxa qurtarmağa, xilas olmağa cəhd edirlər. Lakin bütün bunlarla yanaşı mətbuat dəfələrlə Amerika ədəbiyyatı üçün səciyyəvi olan qəhrəmanla yazıçının arasındakı məsafənin azaldılması fonunda belə Apdaykla onun qəhrəmanı Harri Enqstrom arasında məsafənin faktiki olaraq yoxa çıxması faktını qeyd etmişlər (Cantor, 1994, 39). Onu da xüsusilə qeyd edirlər ki, bu təkcə müəlliflə qəhrəmanın eyni məkanda dünyaya gəlib fəaliyyət göstərməsi, yaşbaxımından uyğunluqları ilə deyil, həmçinin və xüsusilə onların daxili aləminin psixoloji durumunun, hiss və düşüncələrinin faktiki olaraq üst-üstə düşməsi ilə bağlıdır. Bu sübuta yetirir ki, Apdaykın Dovşanla bağlı romanlar silsiləsi heç də müəllifin Amerika ədəbibədii fikrində geniş yayılmış yarı avtobioqrafik roman tipi yaratmaq fikri olmamışdır. Apdayk simvol qəhrəmanın daxili aləmini təcəssüm etməyə cəhd göstərməklə faktiki olaraq dövrünün adamına xas olan bütün çatışmazlıqları üzə çıxarmağa və bədii vasitələrlə ifadə etmək məqsədindən çıxış etmişdir. Bununla bağlı iki məqamı qeyd etmək zəruridir. Birincisi, müəllif öz qəhrəmanın həyat yolunu özünün fərdi həyat yolu ilə maksimum yaxınlaşdırmaqla paradoksal nəticə əldə etməyə nail olmuşdur. Məlum olmuşdur ki, cəmiyyətin üz-üzə gəldiyi problemlərin adekvat təcəssümü fərdi talelərin təcəssümündən keçir. Məhz fərd bütün sosial, ideoloji, mənəvi-əxlaqi problemlərin düyünləndiyi yerdir: şəxsiyyət ictimai fəlakəti öz fərdi fəlakəti kimi yaşayır, buna görə də müəllif və onun qəhrəmanı adekvat şəkildə "sadə amerikalıya", "yoldan keçənə" xas olan bütün kompleksləri ehtiva edir. "Dovşan, qaç" romanının qəhrəmanı Harrinin iyirmi altı yaşı var. Psixoloji cəhətdən bu yaş şəxsiyyətin qocalması üçün böyük əhəmiyyət kəsb edir. İnsanda bu elə bir yaş dövrüdür ki, onun dünya haqqında, insanlar haqqında təsəvvürləri hələ sırf idealist səciyyə daşıyır. İyirmi altı yaşında insan hələ özü üçün rasionalist fəaliyyət sistemi qurub, ona uyğun hərəkət etmək iqtidarında deyil. Harri evlidir, ikinci uşağının dünyaya gəlməsini gözləyir, kiçik bir mağazada reklam agenti işləyir, evdar qadınlara müxtəlif məişət əşyaları nümayiş etdirir. O, işindən də, aldığı əmək haqqından da narazıdır. Bütün bu cəhətlər Apdaykın qəhrəmanın fikrincə insana gerçəkliyin zəhlətökən gündəlik qayğılarından ayrılmaq imkanı verir. Mənəvi–mədəni böhran problemi Apdaykın əsərində özünün yeni görmə bucağından şərhini tapir (Bryant, 2004: 78).

Ernest Heminqueyin də o dövrdə dillər əzbəri olan yığcam və dəqiq cümləsi ədəbiyyatşünaslar arasında mübahisə obyektinə çevrilmişdi – mətnaltı lay varmı, yoxsa bütünlüklə belə bir sahə mövcud deyildir? O, kütləvi şüurun elə dərin laylarına, mədəniyyətin elə humanist incəliklərinə enirdi ki, burada dünyanın əksər xalqlarının adət və mərasimləri mükəmməl şəkildə ifadə edilirdi. U.Folknerin yaradıcılığındakı insan konsepsiyası məsələsini, fikrimizcə, XX əsrin əvvəllərində bütün Amerika ədəbiyyatı kontekstində araşdırmaq daha faydalı olardı. Tədqiqatçıların fikrincə, bu kimi qlobal və idraki məsələlər bədii təfəkkürdə fərdi olanla ümumi xüsusiyyətlərin vəhdətində, bu son dərəcə mühüm fəlsəfi və bədii məsələlərin qovuşuğunda araşdırılmalıdır və belə olduqda hər hansı konkret dövr, yaxud yazıçının poetika sistemində önəmli yer tutan, onu bu və ya digər mövzunu dərindən işləməyə məcbur

edən amilləri ön plana çıxarmağa məcbur edir (Bryant, 2000: 415)

Məlumdur ki, XX əsrin əvvəllərindən etibarən bədii yaradıcılıqda dünyanı əks etdirmənin alternativ yolları axtarılır, bədii əksetdirmənin tipologiyası kəskin şəkildə dəyişirdi. Bu proses müəyyən mənada dövrün özünün spesifikası, o zaman baş verən hadisələrin dinamikası və digər mühüm məsələlərlə bağlı idi. O zaman Amerika cəmiyyətində "böyük depressiya" yaşanırdı, bu isə hər şeydən öncə cəmiyyətdə illər boyu gedən iqtisadi, ideoloji, siyasi və digər proseslərin yekunu olmaqla, ədəbiyyat və ümumən bədii təfəkkürdə qeyri-ənənəvi üslub meyllərinin yaranması, öz iradəsini digər hadisələrə diktə etməsi ilə nəzərə çarpırdı. Bu əsərlərdə günün tələbləri, insani münasibətlərdə baş verən böhran və bəşəri dəyərlər arasında ziddiyyət, onların bir insan ömrü boyunca doğurduğu təbəddülatlar qəribə və son dərəcə orijinal ədəbi vasitələr müstəvisində açılır, süjet, kompozisiya və bədii təhkiyənin yeni, indiyə qədər sınanılmamış üsulları meydana gəlir. Bu mənada Con Steynbek, Cozef Konrad, Uilyam Folkner və Ernest Heminqueyin yaradıcılığında gedən prosesləri izləmək maraqlı olardı (The Moderns, 2002: 315).

Con Steynbekin "Qəzəb salxımı" və Ernest Heminqueyin "Əcəl zəngi" romanları bu baxımdan səciyyəvidir (Bay, 1998: 156). Romanda sosial bəla qəsəbədə məskunlaşan bütün Coudların oradan çıxarılması haqqında sərəncam verən Bankın timsalında göstərilib. Con Steybekin romanını əminliklə romanxəbərdarlıq adlandırmaq mümkündür, Steynbek roman vasitəsi ilə insanlara müraciət edir: "Nəhəng mülkiyyətçilər gözləri ilə gördükləri özlərinə yaxın insanları döyürlər". Con Steynbekin romanı insan haqqında özünəməxsus himndir. "İnsanın son və aydın funksiyası – Con Steynbekin lirik qəhrəmanı deyir ki, – təkcə öz xeyrin üçün deyil, başqalarını xoşbəxt etməkdir, bu elə insan deməkdir". Con Steynbekin əsas qəhrəmanları elə bu tipli insanların arasından seçilir. – Ma, Tom, Keysi. Romanın sonunda özünün balaca dünyasına qapanıb qalan Roza Sarona nəhayət qismətinə qovuşur.

## Nəticə

Məlumdur ki, roman simvolik səhnə ilə başa çatır. Ailədən çıxıb bir daha geri qayıtmayan uşağı Roza Sarona əmizdirir. Həyat davam edir. "İnsan hər bir məhrumiyyətdən sağ çıxır, dözür, dayanır", Con Steynbekin romanlarının məğzini Uilyam Folknerin bu fikirləri ilə ümumiləşdirmək mümkündür. Ümumilikdə götürdükdə o dövrün roman qəhrəmanının əsas qayəsi, onların hərəkətlərinin əsas fəlsəfi mayası daha güclü şəkildə Folknerin estetikasında ifadəsini tapıb.

## Ədəbiyyat

1. Hassan, I. (2002). Contemporary American Literature: 1945-1972 – an introduction. N.T., Ungar, 194 p.
2. Cantor, J. (1994). Some People Just Know How to Fly Text. J.Cantor N.Y. Times. August 28, 8 p.
3. Bunbury, S. (1995). New York State of Mind Текст. S. Bunbury. The Age. Dec 16, 7 p.
4. Frederick, F. (2004). No Pie in the sky; the hobo as American cultural Hero. N.T., Citadel Press, 95 p.
5. Bryant, J. (2004). The open decision. The contemporary American novel and its intellectual background. Text. N.Y., The Free press; L., Collier Macmillan, 415 p.
6. Bryant, J. (2000). The open Decision. The Contemporary American novel and its Intellectual background. The Free Press TTQ, 415 p.
7. The Moderns. (2002). An anthology of New Writing in America. Ed. By LeRoi Jones, Corinth Books, XVI, 315 p.
8. Bay, M. (1998). A Handbook of American Literature. St. Lucia (Queensland), University of Queensland Press, p.211-661.

Göndərilib: 02.10.2022 Qəbul edilib: 13.11.2022

DOI: https://doi.org/10.36719/2706-6185/17/26-29

**Rəvan Rövşən oğlu Əfəndibəyli**
Bakı Mühəndislik Universiteti
magistrant
efendibeylirevan@gmail.com

# DÖVLƏT İDARƏÇİLİYİNDƏ STRATEGİYALAR

**Xülasə**

Bu gün Azərbaycanda dövlət idarəçiliyində, dövlət qurum və təşkilatlarının öz xidmət tələblərini yerinə yetirilməsində səmərəliliyin artırılması üçün bəzi dəyişikliklər həyata keçirilir. Azərbaycanda və dünyada dövlət idarəçiliyində yenidən qurulma işləri davam edir. Əskikliklərin tamamlana bilməsi, ictimai xidmətlərin daha məhsuldar, keyfiyyətli və aktiv bir şəkildə verilə bilməsi üçün xüsusi sektorda tətbiq olunmaqda olan və müvəffəqiyyət gətirən strateji menecment yanaşmasının dövlət qurumlarında da tətbiq olunması düşünülmüşdür.

Araşdırmada performans ölçülməsinə keçidi hazırlayan idarəetmə nəzəriyyələri klassik və müasir nəzəriyyələr baxımından qiymətləndirilmiş, dövləat qurumlarında təşkilati performans ölçülməsi və balanslaşdırılmış göstəricilərin bütün konseptual aspektləri ilə müzakirə edilmişdir. Dissertasiyanın tətbiqi ilə əlaqəli hissəsində, dünyanın fərqli ölkələrində dövlət qurumlarının balanslaşdırılmış göstəricilər modelinin tətbiqinin praktiki nümunələri üzərində durulmuşdur. Araşdırmanın sonunda ölkəmizdə dövlət qurumları üçün gələcək tədqiqatlara istiqamət verəcəyi ehtimalı ilə rəy və təkliflər irəli sürülüb.

***Açar sözlər:*** *Yeni Dövlət İdarəçilyi, strateji idarəetmə, balanslaşdırılmış göstəricilər modeli, Təşkilati Performans ölçümü*

**Ravan Rovshan Afandibayli**
Baku Engineering University
master
**efendibeylirevan@gmail.com**

## Strategies in public administration

**Abstract**

Today in Azerbaijan, in order to increase productivity in the management of the country in order to fulfill the requirements of self-defense bodies and their organizations, some changes are being made. Restoration of governance of the country continues in Azerbaijan and in the world. In order for difficulties to be overcome and social activities to be carried out more effectively, voluntarily and actively, it is important to take into account the strategy that is practiced in a particular sector.

In the course of the study, the Ministry of Management, which prepared the goat for performance measurement, was evaluated from the point of view of classical and modern ministers, the measurement of the effectiveness of the organization in national institutions was considered, and the balance was revised. When completing the dissertation, the main attention was paid to practical examples of the implementation of a balanced demonstration model in different countries of the world. At the end of the study for future institutions in our country, they were driven with the possibility of applying for the future.

***Keywords:****New Public Administration, strategy management, balanced scorecard, Organizational Performance Measurement*

## Giriş

**Tədqiqatın aktuallığı:** Dövlətin fəaliyyətini təmin etməyi hədəfləyən "Yeni Dövlət İdarəçiliyi" anlayışı, klassik idarəetmənin ierarxiyalı, bürokratik və qatı anlayışın əksinə dövlət idarəçiliyində hədəflərə görə idarəetmə, strateji menecment, performansın idarəolunması, vətəndaş mərkəzlilik kimi yanaşmalar, qanun və vasitələri ön plana çıxartmışdır. Dövlət qurumları üçün yeni dövlət idarəçiliyinin ən mühüm dinamikalarından biri, şübhəsiz ki, performansa əsaslanan idarəetmə fəlsəfəsidir. "Ölçmədiyinizi idarə edə bilməzsiniz". Dövlət qurumlarında vətəndaş yönümlü idarəetməyə yanaşma missiyanı, vizyonu, məqsədləri müəyyən etmək və fəaliyyətin nəticələrini ölçmək üçün institusional fəaliyyətin ölçülməsini məcburi etmişdir. "Balanslaşdırılmış göstəricilər", xüsusilə performansın idarıolunması və strateji idarəetmə ilə birlikdə başlanğıcda özəl sektorda əhəmiyyət qazanan və strategiyaları hərəkətə çevirən mali ölçülərin yanında mali olmayan ölçüləri əhatə edən dörd ölçü ilə təşkilati performansı ölçməyi məqsəd qoyan strateji idarəetmə modelidir. Ənənəvi dövlət anlayışından "sahibkar dövlət" anlayışına keçidlə müxtəlif ölkələrdə dövlət qurumlarında tətbiq olunan balanslaşdırılmış göstəricilər modeli uğurlu nümunələri mövcuddur.

**Tədqiqatın məqsəd və vəzifələri:** Strateji menecmentin tətbiqi yanaşmalarından olan balanslaşdırılmış göstəricilər modelinin dövlət qurumlarında tətbiqi əhəmiyyətini və imkanlarını öyrənməkdir. Bunun üçün tədqiqatın vəzifələri olaraq, strateji menecmentin nəzəri əsaslarını təhlil edərək, dövlət idarəçiliyində meydana gələn yeni tendensiyalar ilə dəyərləndirməkdir. Daha sonra gəlinən nəticələrin balanslaşdırılmış göstəricilər modelinə nə dərəcədə uyğun olduğunu və dövlət qurumlarındakı tətbiqi səviyəəsini öyrənməkdir.

**Tədqiqatın obyekti və predmeti:** Dissertasiya tədqiqatının obyekti, dövlət qurumlarında strateji menecmentin tətbiqi təcrubəsində balanslaşdırılmış göstəricilər modelinin başlıca xüsusiyyətlərini əhatə edir. Dövlət idarıçiliyində meydana gələn yanaşmalar və bu yanaşmaların tətbiqinə imkan sağlayan sttrateji idarəetməninin icrası, strateji planlama, performasın idarəedilməsi, səmərəliliyin artırılması və strategiya göstəricilərinin təyin edilməsi tədqiqat çalışmasının predmetini əhatə edir.

**Tədqiqatın informasiya bazası və işlənməsi metodları**: Tədqiqat işi aparılarkən daha çox dövlət idarəçiliyini və strateji idarəetmə təcrübəsini təhlil edən mənbələrdən istifadə edilmişdir. Həmçinin, dünya ölkələrinin strateji menecment və balanslaşdırılmış göstəricilər modelini təhlil edən müxtəlif kitablar, elmi məqalələr, müxtəlif dillərdə çap edilmiş jurnallar və internet resurslarından tədqiqatın obyektiv şəkildə araşdırılması üçün istifadə edilmişdir.

**Tədqiqatın elmi yeniliyi:** Balanslaşdırılmış göstəricilər 1990-cı illərin əvvəllərində Robert Kaplan və David Norton tərəfindən hazırlanmış strateji idarəetmə metodudur və təşkilatlara öz missiyalarını, baxışlarını və strategiyalarını başa düşülən, ölçülə bilən və tətbiq edilə bilən performans ölçülərinə çevirməklə ifadə etməyə imkan verir. Beləliklə, korporativ performans daha sağlam ölçülə bilər və aktivlər daha effektiv və səmərəli idarə olunur. Balanslaşdırılmış göstəricilər modelinin missiyası və strategiyasının başa düşülən performans ölçülərinə ifadəsini təmin edir, beləliklə, strateji ölçü və idarəetmə sistemi üçün lazımi çərçivə yaradır. Bundan əlavə, o, maliyyə məqsədlərinə nail olmağı prioritetləşdirir, həmçinin maliyyə məqsədlərinin performansla bağlı aspektlərini nəzərdən keçirir. Bu üsul həm də şirkətlərə öz maliyyə nəticələrini izləmək, eləcə də gələcəkdə böyümək üçün lazım olan potensialın və qeyri-maddi resursların inkişafını izləmək imkanı verir.

Strateji idarəetmənin tarixi inkişafı öyrənildiyində, ədəbiyyatda strateji menecment tədqiqatlarının başlanması ilə bağlı müxtəlif tarixlərin ön plana çıxdığı görünür. Bəzi müəlliflər üçün istinad nöqtəsi 1960-cı illərin planlaşdırma dövrü, digərləri üçün isə 1900-cü illərin əvvəllərinə aid elmi nəşrlər idi. Strateji idarəetmə 1960-cı illərdə ABŞ-da menecmentin alt sahəsi olaraq təyin edilmiş və bu tərif ilk olaraq Alfred Chandler-in 1962-ci ildə dərc olunan "Strategiya və struktur: Sənaye imperiyasının tarixində fəsillər" adlı kitabında qeyd edilmişdir (Chandler, Alfred, 1962).

Strateji idarəetmə kontekstində strateji düşüncənin elmi şəkildə reallaşdığı ilk iş kimi qəbul edilir. Kitabda General Motors, Sears, Standard Oil of New Jersey və DuPont adlı dörd böyük şirkətin, necə böyüdüyü təhlil edilmişdir. Reed Kennedy-nin bildirdiyinə görə, isə strateji idarəetmə ilə bağlı araşdırmaları 1900-cü illərin əvvəlləri kimi qəbul etmiş və 1911-ci ildə Frederik U. Taylorun qarşıya

qoyulan mühüm vəzifələrin yerinə yetirilməsinin ən yaxşı yolunun təyin edilərək, effektiv hala necə gətirməyi izah edən "Elmi idarəetmənin əsasları" əsəridir. O, kitabını strateji menecmentin elmi perspektivini təqdim etmək baxımından mühüm addım kimi qiymətləndirir. Strateji idarəetmə 1959-cu ildə biznes məktəbi proqramlarında mühüm elementə çevrilməyə başlamışdır (Kennedy, 2020).

Strategiyanın həyata keçirilməsində uğur menecerin idarəetmə nəzarətinə əsaslanan fəaliyyətləri düzgün yerinə yetirməsidir Bu səbəbdən idarəetmə meyarları strateji idarəetmə üçün çox vacibdir. Liderlik, vizyon sahibi olmaq, strateji idarəetmənin uğurunda payını tətbiq etmək və kadrları motivasiya etmək göz qabağındadır. Strateji idarəetmə ilə menecerlər və liderlər strateji düşünmək bacarığı qazanırlar (Kocel, 2007: 282). İnkişaf edən texnologiya, sürətlə dəyişən ekoloji, sosial və iqtisadi şərtlərlə əlaqədar olaraq idarəetmə sahəsində dəyişiklik və transformasiya xüsusilə XXI əsrin sonlarına doğru sürətlənmişdir. Bu dəyişiklik dövlət və özəl sektoru yeni tədbirlər görməyə sövq etmişdir. Özəl sektorun dövlət sektoru ilə müqayisədə daha dinamik və çevik strukturu dəyişikliyə uyğunlaşmaqda özünü daha üstün mövqeyə qoyub, idarəetmə üsullarının işlənib hazırlanmasında və tətbiqində daha erkən hərəkətə keçməsinə və nəticə əldə etməsinə şərait yaradıb (Arthu, Tomphson, Strickland, 1992: 87).

Görünür ki, dövlət sektorundakı ağır və mürəkkəb bürokratik struktur xidmət göstərilən şəxslərin gözlənti və ehtiyaclarına adekvat cavab verə bilmir, sürətlə dəyişən şəraitlə ayaqlaşa bilmir və buna görə də səmərəsiz, effektiv olmayan, nəhəng bir ictimai təşkilat meydana çıxır. Dövlət idarəçiliyi sahəsində bu dünyagörüşün dəyişdirilməsi üçün dövlət orqanları tərəfindən müəyyən edilmiş iradə dəyişikliyin qaçılmaz olduğunu əsas götürərək yeni idarəetmə modellərinin hazırlanmalı olduğunu ortaya qoymuşdur (Arthu, Tomphson, Strickland, 1992: 87).

Son illərdə dövlət qurumlarında institusional fəaliyyətin ölçülməsi dövlətin cəmiyyət qarşısında daha məsuliyyətli və hesabatlı olmasında, etimadın yaradılmasında və gələcək narahatlıqların aradan qaldırılmasında mühüm dinamikalardan birinə çevrilmişdir.

Bu gün bir çox tədqiqatçılar arasında həm qurumun və idarəetmənin səmərəliliyi, həm də işçilərin şəxsi inkişafı baxımından dövlət qurumlarında institusional fəaliyyətin ölçülməsinin əhəmiyyəti barədə fikir birliyi mövcuddur. Bu mənada performansın ölçülməsi; O, təşkilatın məqsədlərinə nail olub-olmadığını obyektiv şəkildə müəyyən edən, missiya və vizyonun bütün səviyyələrdə işçilər arasında qəbul edilməsini təmin edən bir sistem kimi qəbul edilməlidir (Bircan, 2002).

Dövlət qurumlarının gələcək missiyasını və vizyonunu yaratmaq, strateji məqsədləri və ölçülə bilən hədəfləri müəyyən etmək, onların fəaliyyətini əvvəlcədən müəyyən edilmiş göstəricilərə uyğun olaraq ölçmək, monitorinq etmək və həyata keçirmək üçün fəaliyyətə əsaslanan idarəetməyə keçidi asanlaşdıran hüquqi infrastrukturun hazırlanması, bu prosesi qiymətləndirmək, tətbiqlərin müvəffəqiyyəti üçün əhəmiyyətlidir (Bircan, 2002).

Bu gün balanslaşdırılmış balanslaşdırılmış göstəricilər modeli müxtəlif ölkələrdə dövlət və özəl qurumlarda strategiyaları fəaliyyətə çevirən performansın ölçülməsi modeli kimi istifadə olunur. Bu səbəbdən dissertasiyanın korporativ performansın ölçülməsi ilə bağlı tətbiqi hissəsində balanslaşdırılmış göstəricilər modelinə üstünlük verilmişdir. Balanslaşdırılmış. Öyrənən təşkilat fəlsəfəsini balanslaşdırılmış göstəricilər ilə dövlət qurumlarına uyğunlaşdırılarsa, işçi yönümlü bir perspektivlə dəyişən ətraf mühit şəraitinə həssas və tez uyğunlaşa, xidmət keyfiyyətini yüksəldə, məlumatların səmərəli keçidini təmin edə bilər. iyerarxik strukturlardan, statik bir quruluşdan davamlı olaraq dəyişən və inkişaf edən dinamik mühitin yaradılmasına nail olmaq olar (Kaplan, Norton, 2014: 31).

Azərbaycanda strateji idarəetmə yanaşmasının dövlət qurumlarında geniş tətbiqi 2016-cı il 1138 nömrəli Fərmanı ilə sisstemli gerçəkləşmişdir. Bu fərmanla Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri Azərbaycanda davamlı iqtisadi inkişaf əsasında iqtisadiyyatın rəqabətqabiliyyətliliyini, inklüzivliyini və sosial rifahın daha da artırılmasını təmin edilməsi nəzərdə çərçivədə ümumilikdə 12 strateji yol xəritəsinin hazırlanmasına baxmayaraq, GZİT təhlilindən başqa istifadə olunacaq model, yanaşma və texnikadan söz edilmir. Bu da öz sırasında strategiyanın icrasının qiymətləndirilməsi və performans dəyərləndirməsi meyarlarının yetərsizliyi və ya ümumiyyətlə olmaması qənaətinə gəlməyə əsas yaradır (Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi, Azərbaycan Portalının rəsmi səhifəsi). Hazırda ətraf mühit

iqtisadi, texnoloji və sosial inkişafın təsiri ilə davamlı və sürətlə dəyişir və bu dəyişikliyə uyğunlaşmaq günü-gündən çətinləşir. Təşkilatlar üçün dəyişikliyi tutmaq və dəyişikliklərin təşkilatlara hansı təsirləri göstərəcəyini proqnozlaşdırmaq çox vacibdir. Strateji idarəetmə ilə bu təsirləri əvvəlcədən proqnozlaşdırmaqla təşkilatların gələcəyini istiqamətləndirmək olar. Daim və gözlənilməz dəyişən dünyada davamlılığı təmin etmək üçün daxili və xarici amillərin effektiv idarə edilməsi tələb olunur. Strateji planlaşdırmada həm daxili, həm də xarici ekoloji təhlillərdən istifadə düzgün strategiyaların müəyyən edilməsinə kömək edir. Bununla belə, müəyyən edilmiş strategiyaların həyata düzgün şəkildə keçirilməsi düzgün strategiyaların müəyyən edilməsi qədər vacibdir. Sistemli, məntiqli və rasional yanaşma olan strateji idarəetmə, planlaşdırılan strategiyaların həyata keçirilməsi üçün lazımi ehtiyat tədbirləri və hazırlıqları da özündə ehtiva edir və strategiyaların məqsədə uyğunluğunu yoxlayır (Bayraktaroğlu, 2002: 49).

## Nəticə

Strateji idarəetmə ətraf mühitdəki dəyişikliklərə və sahib olduğu hesab edilən resurslara cavab olaraq təşkilatın güclü və zəif tərəflərinə əsaslanan qərarlar qəbul etməyi tələb edir. Bu qərarlara uyğun olaraq, təşkilatın biliklərə əsaslanan dinamik və inkişafa açıq idarəetmədə fəaliyyət göstərməsinə imkan verəcək gələcək uzunmüddətli dəyişikliklərin sistemli proqnozlaşdırılmasını asanlaşdırır. Beləliklə, təşkilatın müvəffəqiyyəti və böyüməsi zamana və xarici amillərə buraxılmadan planlaşdırılır və idarə olunur.

Dövlət idarəçiliyindəki bu dəyişiklik yeni dövlət idarəçiliyi anlayışı ilə işlənmiş və bu çərçivədə idarəetmədə səmərəlilik, iştirakçılıq, hesabatlılıq, sistemli iş və hədəflərlə idarəetməyə əsaslanan bəzi üsullardan istifadə olunmağa başlanmışdır. Bu üsullardan biri də özəl sektorda həyata keçirilən uğurlu modellərin dövlət sektoruna ötürülməsi formasında olmuşdur. Strateji idarəetmə özəl sektordan dövlət sektoruna keçən bu idarəetmə modelləri arasında birinci yerdədir.

Strategiyanın həyata keçirilməsində uğur menecerin idarəetmə nəzarətinə əsaslanan fəaliyyətləri düzgün yerinə yetirməsidir Bu səbəbdən idarəetmə meyarları strateji idarəetmə üçün çox vacibdir. Liderlik, vizyon sahibi olmaq, strateji idarəetmənin uğurunda payını tətbiq etmək və kadrları motivasiya etmək göz qabağındadır. Strateji idarəetmə ilə menecerlər və liderlər strateji düşünmək bacarığı qazanırlar.

## Ədəbiyyat

1. Chandler, Alfred, D. (1962). "Strategy and structure: Chapters in the history of the industrial empire". Cambridge Mass.
2. Kennedy, R. (2020). Strategic Management. Blacksburg: Virginia Tech Publishing.
3. Kocel, T. (2007). "Business Management", Beta Publishing, Istanbul, 282 p.
4. Arthu, A., Tomphson, Jr., Strickland, A. (1992). 3, Stratejik Manegement: Concept and Cases, 6th Edition, Alabama: Irwin, 87 s.
5. Bircan, I. (2002). "Strategic Management and Vision in the Public Sector", Planning Magazine, Ankara.
6. Kaplan, R., Norton, D. (2014). Strategy Maps: Transforming Intangible Assets into Tangible Results. Istanbul: Alfa Publishing. 31 p.
7. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi, Azərbaycan Portalının rəsmi səhifəsi.
8. Bayraktaroğlu, S. (2002). "Strateji İnsan Resurslarının İdarə Edilməsi", Beta Yayınları, İstanbul, 49 s.

Göndərilib: 19.09.2022 Qəbul edilib: 09.11.2022

## İÇİNDƏKİLƏR

**Maarifə Nuh qızı Manafova**
Dilçiliyimizin böyük nailiyyəti – "Ümumtürk dilləri dialekt və şivələrinin qarşılıqlı inteqrasiyası" kitabı ........ 5
**Günel Emil qızı Nəzərova**
Müasir məktəbdə yuxarı sinif şagirdlərinin siyasi mədəniyyətinin formalaşması üzrə işin vəziyyəti ........ 8
**Gülşən Seymur qızı Atakişiyeva**
Qaçqınlar ilə sosial işin məzmunu və istiqamətləri ........ 14
**Leyla Nəsib qızı İsmayılova**
Dövlətin sosial fəaliyyətində pensiya təminatının yeri ........ 18
**Könül Xeyrulla qızı Xalilova**
Amerika ədəbi mühitində mənəvi-əxlaqi problemlərin təcəssüm xüsusiyyətləri ........ 22
**Rəvan Rövşən oğlu Əfəndibəyli**
Dövlət idarəçiliyində strategiyalar ........ 26

İmzalandı: 26.11.2022
Formatı: 60/84, 1/8
H/n həcmi: 4.75 ç.v.
Sifariş: 588

---

https://aem.az saytında çap olunub.
Ünvan: Bakı şəh., Mətbuat prospekti, 529-cu məh.
“Azərbaycan” nəşriyyatı, 6-cı mərtəbə.
Tel.: +994 50 209 59 68
+994 55 209 59 68
+994 12 510 63 99
e-mail: zengezurda1868@mail.ru